# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 fevral 2026-cı il, şənbə
№ 029 (7096)
Qiymət 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident və birinci xanım Almaniyada





Bax səh. 2

## Bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir

Bax səh. 2

## Milli Məclisin iclasında... “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəsi” dinlənilib

Fevralın 13-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib. Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova ABŞ-ın vitse-prezidenti Cey Di Vensin ölkəmizə səfərinin önəmini vurğulayıb. Tarixi əhəmiyyət daşıyan bu səfər Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafında yeni mərhələ açıb. Onun sözlərinə görə, səfər çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası birgə əməkdaşlığın uzunmüddətli prioritetlərini müəyyən edir, energetika, iqtisadiyyat, investisiya qoyuluşu, kosmik sənaye, rəqəmsal infrastruktur, müdafiə, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın dərinləşməsinin möhkəm təməlini yaradır. Sülh, sabitlik və dayanıqlı inkişaf sahəsində ümumi maraqlara əsaslanan Xartiya tərəflərin suverenliyə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına və milli maraqlara hörmət əsasında iş birliyini genişləndirmək niyyətini əks etdirir.

S.Qafarova qeyd edib ki, dünyanın ən qüdrətli dövləti ilə ölkəmizin əlaqələrinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi...

Bax səh. 3




## Şəhərlər üçün yeni çağırışlar

Bax səh. 4

## Xəyanətin dosyesi: dövlətə qarşı çirkin plan

Bax səh. 5

## “Sülh olmayan sülh” paradiqması

Bax səh. 6

## 2026-cı ilin uğurlu başlanğıcı

2026-cı ilin ilk ayında dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək nəticələr qeydə alınıb. Belə ki, yanvar ayı ərzində dövlət büdcəsinin gəlirləri 3 milyard 707,3 milyon manat təşkil edib ki, bu da aylıq proqnozu 32 milyon manat və ya 0,9 faiz üstələyib. Büdcə gəlirlərində əsas yığım vergi orqanının üzərinə düşüb, Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 2 milyard 50,3 milyon manat təşkil edərək proqnozdan 50,3 milyon manat və ya 2,5 faiz çox olub. Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar isə 487 milyon manat təşkil edərək proqnozdan 2 milyon manat və ya 0,4 faiz, Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 4,9 milyon manat təşkil edərək proqnozdan 0,2 milyon manat və ya 4,4 faiz, sair daxilolmalar 31,0 milyon manat təşkil edərək proqnozdan 3,1 milyon manat və ya 11,2 faiz çox təşkil edib. Dövlət Neft Fondundan büdcəyə transfertin məbləği 1 milyard 70 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 64,1 milyon manat təşkil edərək proqnoza qarşı 73,1 faiz icra olunub.

Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 37 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Belə ki, yanvar ayında dövlət büdcəsinin xərcləri 1 milyard 500 milyon manat proqnoza qarşı 1 milyard 437,6 milyon manat məbləğində icra edilib ki, bu da 95,8 faiz təşkil edir. 2026-cı ilin yanvar ayı ərzində icmal büdcənin...

Bax səh. 5




## “NATO 3.0” modeli...

Bax səh. 7



## Məğlubiyyətdənsə müharibəyə davam...

Bax səh. 6

# Prezident və birinci xanım Almaniyada



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün birinci xanım Mehriban Əliyeva ilə birlikdə fevralın 13-də Almaniya Federativ Respublikasına səfərə gəlib.

## Görüşlər əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradır

### İlham Əliyev Münxendə İraq Kürdüstan Regionunun başçısı ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Neçirvan Bərzaninin Azərbaycana səfərləri, həmçinin dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanaraq, bütün bunların əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından yaxşı imkan yaratdığı bildirildi.

Azərbaycan Prezidenti və İraq Kürdüstan Regionunun başçısı iqtisadi, ticari, mədəni, humanitar sahələrdə əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi apardılar, qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.

Dövlətimizin başçısı Neçirvan Bərzanini ölkəmizə səfərə dəvət etdi. İraq Kürdüstan Regionunun başçısı dəvəti məmnunluqla qəbul etdi.

## İkitərəfli əlaqələr qarşılıqlı anlaşma və dəstəyə əsaslanır

### İlham Əliyev Münxendə Slovakiya Baş nazirinin müavini ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Slovakiya Respublikasının Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan Prezidentinin ötən ilin dekabrında Slovakiyaya rəsmi səfəri məmnunluqla xatırlanaraq, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi vurğulandı.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq xarakteri daşıyan ikitərəfli münasibətlərin qarşılıqlı anlaşma və dəstəyə əsaslandığı vurğulandı, müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün imkanların olduğu bildirildi, bu xüsusda hərbi-texniki sahədə tərəfdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu tərəfdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

## İlham Əliyev Münxendə “Oracle” korporasiyasının baş icraçı direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə dünyada ən böyük proqram təminatı və bulud texnologiyaları şirkətlərindən biri olan ABŞ-ın “Oracle” korporasiyasının baş icraçı direktoru Mayk Sisiliya ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə texnoloji transformasiya və süni intellekt sahələrinin inkişafı üzrə həyata keçirilən siyasətə toxunuldu, bu xüsusda “Oracle” korporasiyası ilə əməkdaşlığın genişləndirilməsində qarşılıqlı marağın olduğu bildirildi və tərəfdaşlığın perspektivləri ilə bağlı artıq çərçivə razılaşmasının əldə edildiyi vurğulandı.

“Oracle” şirkətinin Azərbaycanda dövlət və özəl müəssisələrə bir sıra xidmətlərin göstərilməsi ilə bağlı uzunmüddətli əməkdaşlıq məsələləri müzakirə olundu. Azərbaycanın müxtəlif aparıcı ali təhsil müəssisələrində üç “Oracle” akademiyasının fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparıldı.

Görüşdə, eyni zamanda, Azərbaycan-ABŞ siyasi əlaqələrinin yüksək səviyyədə olduğu qeyd edildi, bu xüsusda “Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası”nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Həmin sənəddə də ölkələrimiz arasında süni intellekt sahəsinin prioritet istiqamət kimi əks olunduğu vurğulandı.



## Bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir



### Prezident İlham Əliyev Münxendə Azərbaycan telekanallarına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Münxendə Azərbaycan telekanallarına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**REAL Televiziyası: Cənab Prezident, bizə vaxt ayırdığınız üçün təşəkkür edirik. Budəfəki Münxen Təhlükəsizlik Konfransında Azərbaycanın mesajı nə olacaq?**

**Prezident İlham Əliyev:** Həmişə olduğu kimi, bizim mesajımız əməkdaşlığa, sülhə istiqamətləndirilib. İlk dəfədir ki, mən bu tədbirdə artıq sülhü əldə etmiş dövlət başçısı kimi iştirak edirəm. Əlbəttə, bu məsələ burada yəqin ki, gündəlikdə olacaq. Ona görə bizim mesajlarımız həmişə olduğu kimi, çox açıqdır, aydındır - əməkdaşlıq, sülh, tərəfdaşlıq. Təbii ki, Azərbaycanın həm təhlükəsizlik sahəsində artan rolu, bizim imkanlarımız, eyni zamanda, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, nəqliyyat, bağlantılar, süni intellekt - yəni bütün bu məsələlər bu gün dünyanın əsas gündəliyini təşkil edir. Ona görə Azərbaycan da bu sahələrdə geridə qalmır.

**İctimai Televiziya: Cənab Prezident, bu il Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması gözlənilirmi?**

**Prezident İlham Əliyev:** Bilirsiniz ki, bu, bizdən asılı deyil. Bizim mövqeyimiz artıq uzun illər ərzində Ermənistan tərəfinə çatdırılıb. Ermənistanın Konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi, ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, mən hesab edirəm ki, artıq Ermənistanla Azərbaycan arasında sülh əldə edilib. Vaşinqton Zirvə Görüşündəki razılaşmalar, imzalanmış Birgə Bəyannamə və sülh müqaviləsinin paraflanması defakto sülh deməkdir. Bunun formal tərəfi Ermənistandan asılıdır. Konstitusiyaya nə qədər tez dəyişiklik edilərsə və Azərbaycana qarşı olan ərazi iddiası oradan çıxarılarsa, sülh müqaviləsi o qədər də tez imzalanacaq.

AnewZ Televiziyası: Cənab Prezident, bu gün danışdığımız hər kəs köhnə dünya nizamının dağıldığını və yeni dünyanın peyda olacağını deyir, lakin o, hələ də peyda olmayıb. Sadəcə, bir neçə həftə bundan öncə Davosda Siz “Sülh Şurasının Nizamnaməsi”ni imzaladınız. Azərbaycan qurumun təsisçi üzvüdür. Bir neçə gündən sonra isə Vaşinqtonda daha bir görüş olacaq. Yeni dünya nizamının potensial elementi olaraq bu təşkilat haqqında nə düşünürsünüz?

Prezident İlham Əliyev: Bilirsiniz, əgər xatırlayırsınızsa, mən bu haqda danışmışam, ola bilsin, təfərrüatı ilə yox, amma, ümumiyyətlə, demişəm ki, beynəlxalq hüquq artıq etibarlı deyil. Ölkələr, bir çox ölkələr ona sadəcə məhəl qoymurdu. Yalnız beynəlxalq hüquqa arxalanmaq probleminizi həll etməyəcək. Azərbaycanın nümunəsi isə bunu həqiqətən nümayiş etdirir. Beləliklə, yeni dünya nizamının və ya hökumətlərarası münasibətlər üzrə yeni sistemin peyda olması, əlbəttə ki, işlənilmə mərhələsində idi. Məsələ onda idi ki, ilk addımı atmaq üçün kim üzərinə məsuliyyət götürəcək. Hesab edirəm ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük iş gördü.

Əlbəttə ki, hər şey gündəlikdən asılı olacaq. Bildiyiniz kimi, birinci sammit tezliklə baş tutacaq. Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı “kim güclüdür, o da haqlıdır” anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir.

**CBC Televiziyası: Cənab Prezident, Münxen Təhlükəsizlik Konfransının proqramına əsasən, sabah nəqliyyat dəhlizlərinə həsr olunmuş panel sessiyasında Sizin iştirakınız gözlənilir. Azərbaycan Avropa ilə Asiya arasında nəqliyyat dəhlizlərinin formalaşdırılmasında öz rolunu necə görür?**

**Prezident İlham Əliyev:** Biz artıq uzun müddətdir ki, dəhlizlərin yaradılmasının təşəbbüskarıyıq - enerji dəhlizlərindən başlayaraq, nəqliyyat dəhlizləri ilə davam edərək, hazırda isə artıq elektrik və fiber-optik dəhlizləri də əhatə etməklə. Buna görə də ölkəmizin potensialı möhkəmləndikcə, beynəlxalq əlaqələr inkişaf etdikcə, biz bir növ mövcud bağlantı konsepsiyasına yeni elementlər əlavə edirik.

Əgər neft və qaz kəmərlərini artıq reallaşmış fakt hesab etmək olarsa, baxmayaraq ki, qaz nəqli infrastrukturu¬muzun genişləndirilməsinə ehtiyac var, əgər dəmir yolu əlaqələri ilə bağlı məsələlərin qismən həll olunduğunu nəzərə alsaq və Azərbaycanın nə tranzit daşımaların təmin edilməsində, nə də öz məhsullarının ixracında xüsusi çətinliklərlə üzləşmədiyini qeyd etsək, - hərçənd, Zəngəzur dəhlizi buna əlavə töhfə olacaq, - o zaman elektrik kabelləri, fiber-optik kabellər, məlumat mərkəzlərinin və süni intellektin fəaliyyəti nəticəsində informasiyanın ötürülməsi və tranziti ilə bağlı məsələlər hazırda konkret olaraq məşğul olduğumuz sahələrdir.

Bizim çox üstünlüklərimiz var: coğrafiya, həm Qərbdə, həm də Şərqdə qonşularla sıx əlaqələr, elektrik enerjisinin artıqlığı, hazırlıqlı kadrlar və bir çox digər üstünlüklər. Buna görə də bu gün Azərbaycan həm Şərqdə, həm də Qərbdə ehtiyac duyulan ölkədir. Azərbaycanın öz təhlükəsizliyini və suverenliyini öz gücü ilə təmin etməsi nəzərə alınmaqla, təbii ki, ölkəmizin beynəlxalq nüfuzu daha da artıb. Buna görə də biz dəhlizlər haqqında danışarkən, əlbəttə ki, bu məsələyə daha geniş baxmalıyıq: yalnız dəmir yolu və yalnız avtomobil yolu deyil, həm də bağlantını təmin edən və müasir dünyanın tələblərinə cavab verən bütün istiqamətlər nəzərdə tutulmalıdır. Sağ olun.



## Milli Məclisin iclasında...

# “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəsi” dinlənilib

Fevralın 13-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib. Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova ABŞ-ın vitse-prezidenti Cey Di Vensin ölkəmizə səfərinin önəmini vurğulayıb. Tarixi əhəmiyyət daşıyan bu səfər Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafında yeni mərhələ açıb. Onun sözlərinə görə, səfər çərçivəsində imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası birgə əməkdaşlığın uzunmüddətli prioritetlərini müəyyən edir, energetika, iqtisadiyyat, investisiya qoyuluşu, kosmik sənaye, rəqəmsal infrastruktur, müdafiə, təhlükəsizlik və digər sahələrdə əməkdaşlığın dərinləşməsinin möhkəm təməlini yaradır. Sülh, sabitlik və dayanıqlı inkişaf sahəsində ümumi maraqlara əsaslanan Xartiya tərəflərin suverenliyə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına və milli maraqlara hörmət əsasında iş birliyini genişləndirmək niyyətini əks etdirir.

## Sahibə Qafarova: ABŞ-ın dəstəyi Cənubi Qafqazda sülhün bərqərar edilməsində müstəsna rol oynayır

S.Qafarova qeyd edib ki, dünyanın ən qüdrətli dövləti ilə ölkəmizin əlaqələrinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi bir çox cəhətdən Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və ardıcıl siyasəti sayəsində mümkün olub: “Onun rəhbərliyi ilə Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş, regional enerji-nəqliyyat layihələrinin əsas iştirakçısı, müstəqil xarici siyasət yeridən bir dövlət kimi böyük nüfuz qazanıb. Bu gün bölgəmizin dərin dəyişikliklərə məruz qaldığı bir şəraitdə Azərbaycan konstruktivlik və məsuliyyətli tərəfdaşlıq prinsiplərinə əsaslanır. Biz Ermənistanla Azərbaycan arasında sülh yaradılmasına Birləşmiş Ştatların, xüsusən Prezident Donald Trampın verdiyi töhfəni yüksək qiymətləndiririk. ABŞ-ın dəstəyi Cənubi Qafqazda möhkəm və ədalətli sülhün bərqərar edilməsində müstəsna rol oynayır, iqtisadi inteqrasiya və əməkdaşlıq üçün yeni imkanlar açır”.

Spikerin fikrincə, vitse-prezident Vensin səfəri göstərdi ki, Azərbaycanın və ABŞ-ın Cənubi Qafqaz regionunun gələcək inkişafı ilə baxışları bir-birinə yaxındır. Bizim əməkdaşlığımız təkcə iki ölkənin deyil, həm də Xəzər dənizindən Avropaya qədər geniş bir bölgənin maraqlarına xidmət edir. “Əminliklə söyləmək olar ki, səfər çərçivəsində əldə edilmiş razılaşmalar Amerika-Azərbaycan münasibətlərinin ardıcıl və dinamik inkişafını təmin edəcək, dövlətimizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə şərait yaradacaq”,-deyə spiker vurğulayıb.

İclasda ilk olaraq, “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəsi” dinlənilib. Məruzəni ədliyyə nazirinin müavini Toğrul Hüseynov təqdim edib. O bildirib ki, ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da müsbət nəticələr əldə edilib. Yerli özünüidarəetmə sahəsində islahatların yeni mərhələsinə start verilib və “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” Qanuna əsasən ölkə üzrə bələdiyyələrin sayı 1606-dan 685-dək azaldılıb. Həmçinin birləşən bələdiyyələrin əmlaklarının ayrı-ayrılıqda siyahıya alınaraq hüquq varisliyi qaydasında akt əsasında yeni yaradılan bələdiyyələrə təhvil verilməsi, komissiya üzvlərinin fəaliyyətinin əlaqələndirilməsi və kargüzarlıq işinin düzgün təşkil edilməsi kimi məsələlərlə bağlı komissiyalara zəruri tövsiyələr verilib.

## Toğrul Hüseynov: Ötən il 3 min hektardan çox torpaq sahəsi sahibinə qaytarılıb

Nazir müavini deyib ki, 2025-ci ildə inzibati nəzarət orqanına daxil olmuş 81 min 711 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib və onların 97,2 faizinin qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Onun sözlərinə görə, normativ hüquqi aktların tələblərinə zidd olan aktların dəyişdirilməsi və ya ləğv edilməsi üçün “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Qanuna əsasən aidiyyəti bələdiyyələrə təkliflər verilib: “Bu təkliflər nəticəsində 644 akt ləğv edilib, 950 akt dəyişdirilib, bələdiyyələr tərəfindən təmin olunmayan 7 təklif üzrə məhkəmələrdə iddia qaldırılıb. Xüsusilə torpaq sahələrinin qanunsuz ayrılması ilə bağlı aktların ləğvi nəticəsində 3 min hektardan çox torpaq sahəsinin, o cümlədən 2057 hektar örüş sahəsinin bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılması təmin edilib”.

T.Hüseynov diqqətə çatdırıb ki, 2025-ci ildə əksər bələdiyyələrin büdcə daxilolmalarında müsbət nəticələr qeydə alınıb. 2024-cü illə müqayisədə yerli büdcələrə yerli vergilərdən təxminən 26 faiz (7,2 milyon manat) çox vəsait daxil olub. “Eyni zamanda, 2025-ci il ərzində inzibati nəzarət orqanı tərəfindən 273 maarifləndirmə tədbiri həyata keçirilib və bu tədbirlərdə 7 mindən çox bələdiyyə nümayəndəsi iştirak edib. Bundan əlavə, bələdiyyə aktları və müraciətlərə baxılması zamanı 6074 tövsiyə göndərilərək müxtəlif məsələlər üzrə bələdiyyələrə metodoloji dəstək göstərilib”, - deyə nazir müavini vurğulayıb.

Qeyd edilib ki, 2025-ci ildən etibarən inzibati nəzarət qaydasında baxılması üçün ölkə üzrə bütün bələdiyyə aktları qanunvericiliyin tələblərinə uyğun olaraq “Bələdiyyələrlə iş” informasiya sistemi vasitəsilə elektron qaydada təqdim edilir. Artıq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün bələdiyyələrin aktlarının da informasiya sisteminə yerləşdirilməsi təmin olunub. Nazir müavini vurğulayıb ki, görülmüş tədbirlər nəticəsində bələdiyyə aktlarının vaxtında təqdim edilməməsi halları, eləcə də bununla bağlı bələdiyyənin vəzifəli şəxsləri tərəfindən törədilən inzibati xətaların sayı əhəmiyyətli dərəcədə azalıb: “2025-ci il ərzində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə 50 inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib. Həmin protokollar əsasında 43 bələdiyyənin vəzifəli şəxsi məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb olunub. Müqayisə üçün qeyd edək ki, 2024-cü ildə tərtib edilən protokolların sayı 103 olub”.

Müzakirələrdən sonra illik məruzə qəbul olunub.

## Əmək Məcəlləsində hansı dəyişiklik edildi?

Sonra millət vəkilləri Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda təsdiqləyiblər. Bildirilib ki, işçilərin minimum yaşayış səviyyəsini təmin edən və bu gün bütün dünyada sosial siyasət alətlərindən biri olan minimum əməkhaqqının tənzimlənməsi bir çox beynəlxalq qurumların, xüsusən də Beynəlxalq Əmək Təşkilatının həll etdiyi və diqqətdə saxladığı məsələlərdəndir. Bu xüsusda Dünya Bankı Qrupunun “Business Ready” hesabatında qanunvericiliyin minimum əməkhaqqının dövri yenilənməsinin məcburiliyinin təsbit edilməməsi bal itirən suallar kateqoriyasına şamil edilib.

Qeyd olunanlar nəzərə alınaraq, Əmək Məcəlləsində dəyişiklik edilməsi zərurətindən irəli gələn qanun layihəsi hazırlanıb. Layihənin qəbulu ölkəmizdə sosial müdafiənin səmərəli aləti sayılan minimum əməkhaqqının müəyyənləşməsinin dövriliyini təmin edəcək.

“Əhalinin sağlamlığının qorunması haqqında” və “Onkoloji yardım haqqında” qanunlara təklif edilən dəyişikliklər də üçüncü oxunuşda qəbul olunub. Qeyd edilib ki, mövcud “Onkoloji yardım haqqında” Qanunun tələblərinə əsasən, onkoloji xidmət yalnız onkoloji xidmət göstərilməsi üçün ixtisaslaşmış dövlət müəssisələri tərəfindən həyata keçirilir. Təklif edilən yeni dəyişikliklər nəticəsində isə ixtisaslaşdırılmış özəl tibb müəssisələri ilə yanaşı, “Lisenziyalar və icazələr haqqında” Qanunun tələblərinə əsasən yalnız onkoloji yardım üzrə lisenziyaya malik özəl tibb müəssisələri tərəfindən xidmət həyata keçiriləcək.

Cəzaların İcrası Məcəlləsinə isə birinci oxunuşda dəyişiklik edilib. Layihəyə əsasən, məcəllənin 24-cü maddəsi yeni redaksiyada verilir. Həmin maddəyə görə, məhkum cəriməni müəyyən edilmiş müddətdə ödəmədikdə cərimə növündə cəzanın icrası hökmü çıxarmış məhkəmə tərəfindən məcburi qaydada icraya yönəldilməklə həyata keçiriləcək. Bu halda cərimə, ilk növbədə, məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldiləcək. Məhkumun əməkhaqqı və ya başqa qazancı olmadıqda, yaxud məhkumun əməkhaqqı və ya başqa qazancı cərimənin tamamilə ödənilməsi üçün kifayət etmədikdə cərimə məhkumun xüsusi mülkiyyətdə olan əmlakına və ya ümumi mülkiyyətdə olan payına yönəldilir və bu halda “İcra haqqında” Qanunun tələbin borclunun əmlakına yönəldilməsi ilə bağlı müddəaları tətbiq olunacaq.

Qeyd edək ki, deputatlar gündəlikdə olan digər qanun layihələrini də qəbul ediblər.

*Nardar BAYRAMLI*

# Azərbaycanın humanitar missiyası

## Ukraynaya göndərilən enerji avadanlığı İrpen şəhərinə təhvil verilib

Azərbaycan vətəndaşları və şirkətləri tərəfindən Ukraynada enerji infrastrukturunun bərpası üçün göndərilən enerji avadanlıqları İrpen şəhərinə təhvil verilib.

Enerji avadanlıqlarının təhvilvermə mərasimində Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Kiyev vilayət Hərbi Administrasiyasının rəhbəri Mikola Kalaşnik, Ukraynanın ölkəmizdəki səfiri Yuri Qusev iştirak ediblər. Tədbirdə bildirilib ki, bu dəfə Azərbaycan tərəfindən 17 müxtəlif enerji generatoru, 4 portativ enerji sistemi və 3 istilik qurğusu göndərilib. Qeyd edilib ki, bu yardım Ukrayna üçün çətin dövrdə əsl həmrəyliyin və qardaşlıq yardımının daha bir parlaq nümunəsidir. Bu enerji avadanlıqları əsasən Fövqəladə Hallar üzrə Dövlət Xidmətinin istifadəsinə veriləcək.

## Dost ölkənin enerji təsərrüfatında kritik durum

Uzanan müharibə Ukraynada həyatın bütün sahələrində son dərəcə kədərli izlər buraxmaqdadır. Aktiv döyüş əməliyyatlarının getdiyi bölgələrin milyonlarla sakini doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalıb. Uzaq mənzilli siahların işə salınması ilə artıq arxa cəbhə anlayışı da sıradan çıxıb. Təmas xəttindən uzaqda yerləşən kəndlər, şəhərlər də tez-tez raket zərbələrinə, dron hücumlarına məruz qalırlar. Ürək ağrıdan reallıq ondan ibarətdir ki, bu gün Ukraynanın ayrı-ayrı bölgələrində humanitar fəlakət yaşanır.

Ölkənin infrastruktur təminatında, xüsusilə də enerji təchizatında vəziyyət kritik dərəcədə ağırdır. Davamlı hava zərbələrinin nəticəsi olaraq enerji təchizatı obyektlərinə ciddi ziyan dəyib. Tələbat kəskin şəkildə ödənilmədiyinə görə ölkədə energetika sahəsində fövqəladə vəziyyət rejimi tətbiq olunub: hər yerdə saatlarla davam edən elektrik kəsintiləri baş verir ki, bu da biznesin fəaliyyətinin dayanmasına və məktəblərin distant təhsilə keçməsinə səbəb olur. Ən çətin vəziyyət Kiyevdə, eləcə də ölkənin mərkəzi, şimal və şərq bölgələrində müşahidə olunur. Paytaxt Kiyevdə, hava zərbələrinin nəticəsində enerji və istilik böhranı səbəbindən sakinlərin müvəqqəti sığınacağı üçün çadır şəhərcikləri salınır. Ətrafdakı çoxmənzilli evlərdən çadırlara köçən sakinlər bildiriblər ki, günlərdir mənzillərdə istilik, işıq və su yoxdur. Ukraynanın daxili işlər naziri İqor Klimenkonun sözlərinə görə, çadır şəhərciklərinin qurulması yeganə çıxış yolu oldu. İ.Klimenko deyib ki, bu çadır şəhərciklərindən biri minimum 300 nəfəri qəbul etmək imkanına malikdir.

O cümlədən Xarkov vilayətinin hakimiyyət orqanları regional fövqəladə vəziyyət elan ediblər. Xarkov Vilayət Hərbi Administrasiyasının rəhbəri Oleq Sinequbov bildirib ki, Xarkov vilayətinin enerji infrastrukturu daim atəşə tutulur. Çətin vəziyyəti nəzərə alaraq, Xarkov vilayətinin enerji sektorunda regional fövqəladə vəziyyət elan edilməsi qərarı verilib.

Belə çətin durumda ölkənin xarici işlər naziri Andrey Sıbiqanın təşəbbüsü ilə “Ukrayna üçün istilik (WarmForUkraine)” adlı qlobal aksiyayaya start verilib. Aksiyanın məqsədi Ukrayna üçün generatorların və istilik qurğularının alınması məqsədilə vəsait toplamaqdır. Çağırış bütün dünyada olduğu kimi, Azərbaycanda da rəğbətlə qarşılanıb.

Qeyd edək ki, müharibə başlayandan bəri Azərbaycanın Ukraynaya yardımı davamlı hal alıb. Respublikamızdan dost ölkəyə yardımlar müxtəlif istiqamətlərdə göstərilir. O cümlədən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında ölkəmizdə Ukraynadan olan uşaqlar üçün reabilitasiya kursları təşkil olunub. Həmin proqramlar çərçivəsində Ukraynadan olan uşaqlar həm respublikamızın ayrı-ayrı guşələrini gəziblər, həm də onlar 14 günlük sosial reabilitasiya proqramı çərçivəsində art-terapiya və peşəkar psixoloq tərəfindən fərdi və qrup terapiyalarına cəlb ediliblər.

Eyni zamanda, dost Ukrayna xalqı Azərbaycanın yardımlarını minnətdarlıq hissii ilə qəbul edir. Kiyev vilayət Hərbi Administrasiyasının rəhbəri Mikola Kalaşnik KİV-ə açıqlamasındaUkraynaya uzunmüddətli dəstəyə



görə, Azərbaycan xalqına və hökumətinə təşəkkür edib. “Bu dəstəyin bölgəmiz və xüsusilə də işğala, böyük əzablarla dözən, lakin indi bərpa olunmağa davam edən İrpen şəhəri üçün əhəmiyyəti böyükdür. Bu generatorlar bölgəmizdə insanların əsas ehtiyaclarını - su, istilik və elektrik enerjisini təmin edir”, - deyə Mikola Kalaşnik əlavə edib.

Xatırladaq ki, indiyədək Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ümumi dəyəri 45 milyon dollara yaxındır.

## Azərbaycanın bütün dünyanı əhatə edən yardım proqramları

Ərazi bütövlüyünü və suverenliyini tam təmin edən Azərbaycan da zamanında ədalətsiz müharibəyə cəlb olunan və humanitar fəalakətlə üzləşən ölkədir. Buna görə də dövlətimiz və cəmiyyətimiz dünyanın ayrı-ayrı bölgələrində yaşanan humanitar böhranlara həssas yanaşma sərgiləyir. Ölkəmiz daim o mövqedən çıxış edir ki, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəylik daha da gücləndirilməlidir. Bu gün biz qürur duyuruq ki, güclü Azərbaycanın dünyanın ayrı-ayrı regionlarını əhatə edən yardım proqramları uğurla icra edilir və bundan milyonlarla insan faydalanır.

Bu barədə konkret təsəvvürün yaranması üçün bəzi faktları xatırlatmaq yerinə düşər. Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmayıb. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərib. Təbii ki, bu ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Prezident İlham Əliyev 2019-cu ildə kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusi diqqətin ayrılmalı olduğunu gündəmə gətirib. Dövlətimizin başçısı Qoşulmama Hərəkatının sammiti zamanı inkişaf edən kiçik ada dövlətlərinin və Afrika ölkələrinin pandemiyadan sonra daha yaxşı bərpası üçün Qlobal Çağırışlar elan edib və ilk donor olaraq ölkəmiz bu məqsədlə hər iki Çağırışa 1 milyon ABŞ dolları məbləğində vəsait ayırıb.

Suriyaya dəstək Azərbaycanın humanitar missiyasının daha bir ifadəsidir. Artıq Suriyada yeni dönəm başlayıb. Ölkənin keçid dövrü hakimiyyəti Bəşər Əsəd rejiminin kədərli miraslarının aradan qaldırılması kimi ağır bir prosesə başlayıb. Çətinliklə də olsa, işlər irəliləyir. Respublikamız Suriyaya dəstəyini ilk ifadə edən dövlətlər sırasında yer alır. Bu dəstək müxtəlif istiqamətləri əhatə edir. O cümlədən, ölkəmizdən Suriyaya qaz ixracına da start verilib.

*Mübariz FEYİZLİ*

# “Avrasiyanın Strateji Nizamının Müəyyənləşdirilməsi: Orta Dəhliz - Sabitlik, Sülh, Təhlükəsizlik və Bağlantılar üzrə Avropa Təhlükəsizlik Gündəliyi” mövzusunda panel müzakirələrində

## Ceyhun Bayramov Tramp Marşrutu layihəsinin əhəmiyyətindən danışıb

Fevralın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Avrasiyanın Strateji Nizamının Müəyyənləşdirilməsi: Orta Dəhliz - Sabitlik, Sülh, Təhlükəsizlik və Bağlantılar üzrə Avropa Təhlükəsizlik Gündəliyi” mövzusunda panel müzakirələrində çıxış edib. Paneldə, həmçinin Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso çıxış ediblər.




AZƏRTAC xəbər verir ki, Ceyhun Bayramov Cənubi Qafqazda davamlı sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ölkəmizin mövqeyi və xüsusilə də tarixi Vaşinqton Sammitindən sonra atılan addımlar, Azərbaycanın regional təhlükəsizlik və sabitlik istiqamətində həyata keçirdiyi siyasət barədə ətraflı məlumat verib.

Ermənistana istiqamətlənən yüklərə münasibətdə tranzit məhdudiyyətlərinin aradan qaldırılması, Azərbaycandan Ermənistana neft məhsullarının satışı istiqamətində atılan addımların son onilliklər ərzində görünməmiş dərəcədə sabit mühitin formalaşmasına töhfə verdiyi qeyd edilib.

Bununla yanaşı, Ermənistan tərəfindən də yüklərin Azərbaycandan keçməklə üçüncü ölkələrə ixrac edilməsinə müvafiq icazə verilməsinin, beyin mərkəzlərinin nümayəndələrinin və ekspertlərin görüşlərinin əhəmiyyətli etimad quruculuğu tədbirləri olduğu vurğulanıb.

Tərəflər arasında paraflanmış sülh sazişinin imzalanması və normallaşma gündəliyinin daha da irəli aparılması baxımından Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması və Vaşinqton Bəyannaməsinə uyğun olaraq Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin icrasında real irəliləyişin əldə olunmasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Prezident İlham Əliyevin siyasətinin bölgəmizin regional rəqabət və konfrontasiya məkanına çevrilməməsi istiqamətində tədbirlərə kökləndiyi xatırladılıb.

Nazir panel müzakirələrində, həmçinin Azərbaycanın Orta Dəhlizin gücləndirilməsi istiqamətində həyata keçirdiyi genişmiqyaslı infrastruktur işləri, investisiyaları və regional tərəfdaşlarla normativ-hüquqi əlaqələndirmə tədbirləri barədə məlumat verib.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükaşırma prosedurlarının asanlaşdırılması məqsədilə Azərbaycan, Qazaxıstan, Türkiyə və Gürcüstan arasında birgə Yol Xəritəsinin qəbul edildiyi bildirilib, bunun nəticəsində tranzit müddətlərinin əhəmiyyətli dərəcədə azaldığı və yük daşımalarının həcminin artdığı qeyd edilib.

TRIPP təşəbbüsü də daxil olmaqla inklüziv bağlantı layihələrinin əhəmiyyəti diqqətə çatdırılıb, bu çərçivədə Avropa İttifaqının daha fəal iştirak potensialı, Türkiyənin və Gürcüstanın da regional nəqliyyat əlaqələrinin inkişafında vacib rolu qeyd edilib.

Bununla yanaşı, regional bağlantıların inkişafı istiqamətində ölkəmizin Mərkəzi Asiya ilə həyata keçirdiyi birgə layihələr və səylər diqqətə çatdırılıb.

Panel müzakirələri daha sonra sual-cavab sessiyası ilə davam edib.

# Şəhərlər üçün yeni çağırışlar

**Böyük uğurla baş tutan COP29-dan sonra ölkəmiz daha bir qlobal tədbirə ev sahibliyi etməyə hazırlaşır. Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq. Bütövlükdə, Forum şəhərsalma sahəsində qabaqcıl təcrübələrin bölüşülməsi, tərəfdaşlıqların gücləndirilməsi və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi üçün mühüm platforma qismində qəbul olunur. Məsuliyyətli dövlət olan Azərbaycan ev sahibi ölkəsi kimi qlobal foruma ciddi hazırlıqlar görüb. Eyni zamanda, hazırda BMT və digər səviyyələrdə Bakı forumu ilə bağlı silsilə tədbirlər keçirilir və aktual müzakirələr aparılır. Bu tədbirlərdə ifadə olunan fikirlər ona dəlalət edir ki, dünya Azərbaycana inanır və beynəlxalq birliyin Bakı forumundan gözləntiləri böyükdür. Bu günlərdə WUF13-ə həsr olunmuş onlayn brifinq baş tutub və tədbirdə BMT rəsmiləri Bakı forumunun gündəliyi ilə bağlı mühüm açıqlamalar veriblər.**

## Dayanıqlı şəhər inkişafı məsələlərinin prioritetliyi

Hər dövr müxtəlif sahələrdə yeni çağırışlar yaradır. Hazırkı dövr qlobal istiləşmənin artması və iri şəhərlər ətrafında təmərküzləşmə meyllərinin daha da sürətlənməsi ilə səciyyələnir. Hər iki halda şəhərlər üşün çağırışlar yaranır. Təchizatla və urbanizasiya ilə bağlı çağırışlar daha aktualdır. Şəhər mühitinin düzgün planlaşdırılması və idarə olunması BMT-nin qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında da həlledici rol oynayır və bu kontekstdə şəhərlərin baş planları inklüzivlik, təhlükəsizlik, əlçatanlıq və dayanıqlılıq baxımından əsas strateji alətlərdən biridir.

Burada Azərbaycanın təcrübəsinə istinad oluna bilər. Ölkəmizin milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən biri kimi müəyyənləşdilib və hazırda respublikamız işğaldan azad olunmuş ərazilərdə dünyaya nümunəvi şəhərsalma təcrübəsi təqdim edir. Paralel şəkildə, Azərbaycan iqlim dəyişmələrinə və urbanizasiya sahəsində beynəlxalq səylərə fəal töhfə verir.Bu xüsusda, COP29 çərçivəsində Azərbaycanın təqdim etdiyi “Dayanıqlı və Sağlam Şəhərlər üçün Çoxsahəli Fəaliyyət Yolları” təşəbbüsü şəhərsalma ilə səhiyyə və iqlim siyasətləri arasında inteqrasiyanı təmin etdiyini göstərir.

Paytaxtımızın ev sahibliyi edəcək tədbirdə də bir sıra mühüm təşəbbüslərin irəli sürülməsi və yeni sənədlərin qəbul edilməsi gözlənilir. Bu barədə BMT-nin Məskunlaşma Proqramının kommunikasiya üzrə direktoru Katerina Bezqaçina brifinqdə bildirib. Onun bildirdiyinə görə, WUF13-ün yekunları üzrə mənzil və davamlı şəhər inkişafı məsələlərinə xüsusi diqqət göstərilməsini nəzərdə tutan “Baku Call to Action”ın qəbul edilməsi planlaşdırılır. “Forumun yekunu WUF13-də qəbul ediləcək “Baku Call to Action” - mənzil və dayanıqlı şəhər inkişafı məsələlərinə prioritet əhəmiyyət verilməsi çağırışı olan sənəd olacaq. Biz milli hökumətləri, şəhərləri, yerli hakimiyyət orqanlarını və digər maraqlı tərəfləri bu sənədə töhfə verməyə,




həllər təqdim etməyə və mənzil təminatı sahəsində konkret addımları dəstəkləməyə çağırırıq,” - deyə qurum rəsmisi vurğulayıb.

O əlavə etdi ki, WUF13 çərçivəsində yeni urbanistik gündəlik üzrə nazirlik görüşü təşkil olunacaq, burada tərəqqi nəzərdən keçiriləcək və prioritetlər müəyyənləşdiriləcək. Fikirlərinə davam edən Bezqaçina vurğulayıb ki, Dünya Urbanistik Forumunun maraqlı xüsusiyyətlərindən biri WUF13-də təqdim olunacaq “Urban Expo” - qlobal həllər platformasıdır. “Bu, bütün dünyanın mənzil sahəsində müxtəlif modelləri və həlləri nümayiş etdirmək imkanıdır. İştirakçılar öz məhsullarını və ən yaxşı təcrübələrini təqdim edəcəklər,” - deyə Bezqaçina bildirib.

Qeyd etmək yerinə düşər ki, hazırda “Urban Expo”da iştirak üçün müraciətlərin qəbulu davam edir və bu proses martın 31-də başa çatacaq. Eyni zamanda, hökumət nümayəndələri, sahə liderləri, startaplar və texnologiya şirkətləri ilə şəbəkə görüşləri planlaşdırılıb.

## Hamı üçün mənzil

Hazırda dünyada şəhərsalma sahəsində mənzil, təhlükəsiz şəhərlər kimi problemlərin də aktuallığı heç vaxt olmadığı qədər artıb. BMT Baş katibinin müavini və BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax birifinqdəki çıxışında diqqəti bu qəbildən olan məsələlərə yönəldib. Bakının ev sahibliyi edəcəyi forumu dəyərləndirən BMT rəsmisi bildirib ki, bu, ölkələrə və tərəfdaşlara yerinə yetirilmiş öhdəlikləri qiymətləndirməyə, boşluqları müəyyən etməyə və növbəti onillikdə layiqli mənzil təminatı üçün prioritetləri təyin etməyə imkan verəcək nəzarət nöqtəsi olacaq. Onun sözlərinə görə, forumun mövzusu “Hamı üçün mənzil: təhlükəsiz və davamlı şəhərlər, icmalar” olacaq və bu, qlobal mənzil böhranının aktuallığını əks etdirir.

Brifinqdə təqdim olunan statistika həqiqətən də dəhşət saçır. Hazırda dünyada təxminən 3 milyard insan qeyri-qənaətbəxş mənzil şəraitində yaşayır, onların 1 milyarddan çoxu qeyri-rəsmi yaşayış məntəqələri və gecəqondularım sakinidir. 300 milyondan çox insan evsizliklə üzləşir.

Anaklaudia Rossbax vurğulayıb ki, normal mənzilin çatışmazlığı milyonlarla insanı iqlim riskləri qarşısında həssas edir. Xüsusən qeyri-rəsmi yaşayış məntəqələrində yaşayanlar bundan əziyyət çəkirlər. Daxili köçkünlərin, qaçqınların və miqrantların 60 faizdən çoxu şəhərlərdə sığınacaq tapır, bu da mənzil sistemlərinə əlavə yük yaradır. BMT rəsmisinin sözlərinə görə, WUF13 mənzili qlobal gündəmin mərkəzinə qoyacaq, onu yalnız əsas insan hüququ kimi deyil, həm də inklüziv, iqlimə davamlı və böhranlara uyğunlaşa bilən inkişafın əsası kimi nəzərdən keçirəcək.

Rossbax həmçinin qeyd edib ki, 2026-cı il qlobal gündəm üçün əsas il olacaq, çünki 2016-cı ildə Kitoda Habitat III konfransında Yeni Urbanistik Gündəmin (New Urban Agenda) qəbulunun 10 ili tamam olur. “BMT Baş katibi onun həyata keçirilməsinin aralıq icmalını təqdim edəcək ki, bu da 2036-cı ilə qədər tətbiqin növbəti onilliyinin formalaşdırılmasında mühüm mərhələ olacaq. Bundan əlavə, Davamlı İnkişaf Məqsədi (DİM) 11 “Davamlı şəhərlər və icmalar” üzrə tərəqqi 2026-cı ilin iyulunda BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda nəzərdən keçiriləcək, BMT Baş Assambleyası isə Yeni Urbanistik Gündəm üzrə yüksək səviyyəli iclas keçirəcək”, - deyə Rossbax fikirlərini yekunlaşdırıb

*Mübariz ABDULLAYEV*

# 2026-cı ilin uğurlu başlanğıcı

## ÜDM-in həcmi və büdcə gəlirləri yüksəlib

2026-cı ilin ilk ayında dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək nəticələr qeydə alınıb. Belə ki, yanvar ayı ərzində dövlət büdcəsinin gəlirləri 3 milyard 707,3 milyon manat təşkil edib ki, bu da aylıq proqnozu 32 milyon manat və ya 0,9 faiz üstələyib. Büdcə gəlirlərində əsas yığım vergi orqanının üzərinə düşüb, Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 2 milyard 50,3 milyon manat təşkil edərək proqnozdan 50,3 milyon manat və ya 2,5 faiz çox olub. Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar isə 487 milyon manat təşkil edərək proqnozdan 2 milyon manat və ya 0,4 faiz, Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 4,9 milyon manat təşkil edərək proqnozdan 0,2 milyon manat və ya 4,4 faiz, sair daxilolmalar 31,0 milyon manat təşkil edərək proqnozdan 3,1 milyon manat və ya 11,2 faiz çox təşkil edib. Dövlət Neft Fondundan büdcəyə transfertin məbləği 1 milyard 70 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 64,1 milyon manat təşkil edərək proqnoza qarşı 73,1 faiz icra olunub.

### Büdcədə 2 milyard manatdan çox profisit yaranıb

Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 37 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Belə ki, yanvar ayında dövlət büdcəsinin xərcləri 1 milyard 500 milyon manat proqnoza qarşı 1 milyard 437,6 milyon manat məbləğində icra edilib ki, bu da 95,8 faiz təşkil edir. 2026-cı ilin yanvar ayı ərzində icmal büdcənin gəlirləri 4 milyard 411,9 milyon manat, xərcləri isə 1 milyard 717,5 milyon manat məbləğində icra edilib. Beləliklə, yanvar ayında dövlət büdcəsinin icrasında 2 milyard 269,7 milyon manat profisit (büdcə artıqlığı) yaranıb.

Qeyd edək ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində təsdiq edilib. İcmal büdcənin gəlirləri isə 44 milyard 969,4 milyon manat, xərcləri 48 milyard 839,3 milyon manat müəyyən olunub. Büdcə zərfində müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə xərclər üçün 8,7 milyard manat həcmində nəzərdə tutulub.

Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3,5 milyard manat vəsaitin ayrılması planlaşdırılıb. Əhalinin sosial rifahı üçün büdcədən 2026-cı ildə 17,1 milyard xərclənməsi təsdiqlənib.




### Qeyri-neft sənayesində yüksək artım

Yanvar ayında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 4,7 milyard manatlıq məhsul istehsal edilib ki, bu da 2,5 faiz artımdır. Neft-qaz sektorunda məhsul istehsalı 1,4 faiz, qeyri neft-qaz sektorunda isə 8,7 faiz artıb. Sənaye məhsulunun 56,4 faizi mədənçıxarma sektorunda, 35,2 faizi emal sektorunda, 7,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub. Beləliklə, ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb.

Ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin artmasında sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin, Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye vektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir.

### ÜDM-in neft gəlirlərində müsbət dinamika

2026-cı ilin ilk ayının büdcə göstəriciləri onu əsaslandırır ki, ölkəmizdə iqtisadi inkişaf dinamikası dayanıqlı olmaqla, makroiqtisadi sabitliyi və fiskal yığımları təmin etməkdədir. İqtisadi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul (ÜDM) yanvar ayında 1,7 faiz artmaqla nominal həcm etibarilə 9 milyard manatı ötüb. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 2,3 faiz artıb. Burada maraqlı məqamlardan biri son 2-3 ildə neft-qaz sektorunda azalan ÜDM-in 2026-cı ildə artım tempi ilə qeydə alınmasıdır. Bu, onu göstərir ki, neft sektorunda yenidən istehsal və emal dinamikası başlayıb və bu, ümumi inkişafa mühüm təsir göstərəcək. Ölkəmizdə yaradılmış əlavə dəyərin portfelində isə yenə də əsas iqtisadi güc mənbəyi qeyri-neft sektoru olub ki, bu sahədə ÜDM 2,3 faiz artıb.

Ümumilikdə, ilk ayda ÜDM istehsalının əksər sahələrində müsbət meyillər müşahidə edilib. Belə ki, milli gəlirin strukturunun 33,9 faizi sənaye, 11,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,2 faizi informasiya və rabitə sahələrinin, 23,4 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 884,5 manata bərabər olub.




### İnvestisiyalar 75,6 faiz artıb, inflyasiya 5,7 faiz təşkil edib

2026-cı ilin yanvar ayında əsas kapitala 1 milyard 405,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin yanvar ayı ilə müqayisədə 75,6 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 78,3 faiz, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 73,9 faiz artıb. Kapitalın 758,6 milyon manatı və ya 54 faizi məhsul istehsalı sahələrinə, 551 milyon manatı (39,2 faizi) xidmət sahələrinə, 96,3 milyon manatı (6,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların təxminən 1 milyard manatını və ya 71,4 faizini daxili investisiyalar təşkil edib. İnvestisiyaların 577,2 milyon manatı və ya 41,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

2026-cı ilin yanvar ayında istehlak qiymətləri indeksi 2025-ci ilin yanvar ayına nisbətən 5,7 faiz artıb. İnflyasiya zənbilində qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,1 faiz, qeyri-qida məhsulları üzrə 3,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,6 faiz təşkil edib.

*E.CƏFƏRLİ*

# Xəyanətin dosyesi: dövlətə qarşı çirkin plan

## Ramiz Mehdiyevin və xain şəbəkənin cinayət əməlləri ifşa edilir

35 illik müstəqillik tarixinə malik olan Azərbaycan arxada qoyduğumuz ən yeni tarixdə böyük uğurlara imza atıb. Bizim qələbəmiz yalnız suverenliyimizin və ərazi bütövlüyümüzün təmini ilə məhdudlaşmayıb - son 23 ildə Azərbaycan qlobal dünyanın olduqca vacib bir hissəsinə çevrilməyi bacarıb. Müasir inkişaf yoluna qədəm qoymuş, demokratik sütunlarını daha da möhkəmləndirmiş, insan hüquq və azadlıqlarını ən yüksək səviyyədə təmin etmiş, xalqın rifah halının yüksəldilməsini ən vacib prioritetinə çevirmiş, nəhayət, özünün milli təhlükəsizliyini, müstəqil siyasi kursunu və milli maraqlarını ən ali səviyyədə qoruyan bir dövlətə çevrilmiş Azərbaycan beynəlxalq aləm üçün dövlətçilik inkişafının nümunəsi kimi ön plana çıxıb. Qısa zaman kəsiyində bütün bunlara nail olmaq olduqca böyük bir qələbədir - bəlkə də, son 100 ildə buna nail olan tək-tək dövlət ola bilərdi.

Təbii ki, bütün bu uğurlar, bu irəliləyişlər dövlətimizə qarşı çirkin planlar quran, milli və müstəqil siyasətimizdən narahatlıq keçirən, Qarabağın azad olunmasına hədəflənən siyasəti qəbul edə bilməyən xarici mərkəzləri, dövlətləri narahat etməyə bilməzdi - bununla bağlı dəfələrlə hətta açıq təzyiqlər səsləndirilir, Azərbaycana qarşı təhdidlər edilirdi. Həmin mərkəzlər və dövlətlər Azərbaycandakı əlaltılarını prosesə təsir etmək üçün təlimatlandırırdı. Amma biz bütün təzyiqlərə və təhdidilərə layiqli cavab veririk - bizim ilə hədə dilində danışmağın mümkünsüzlüyünü əməlimizlə sübuta yetiririk. Dövlətimizə qarşı yönələn ən kiçik təhlükənin belə zərərsizləşdirilməsi üçün səfərbər oluruq. Necə ki, son Ramiz Mehdiyev xəyanəti ilə bağlı məsələdə olduğu kimi...

**Xəyanətkar sövdələşmə - Mehdiyev. Abbasov, Kərimli triosu...**

Ramiz Mehdiyevin və başçılıq etdiyi dəstənin cinayətkar əməlləri ilə bağlı yayılan rəsmi məlumatda bildirilir ki, onlar hakimiyyətin zorla ələ keçirilməsi, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi fəaliyyəti kimi bir xəyanətin içində olublar. Başqa sözlə, Ramiz Mehdiyev, Abbas Abbasov, Əli Kərimli və digərlərinin daxil olduğu şəbəkə xarici xüsusi xidmət orqanlarının diqtəsinə uyğun olaraq Azərbaycanda dövlət çevrilişi həyata keçirmək planını gerçəkləşdirmək istəyib. Söhbət 4 iyul 2012-ci ildə xarici ölkədə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı" adı altında qeydiyyatdan keçirilmiş və "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyrilərinin dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşməsindən gedir.

Mənzərə tam aydındır - xarici ölkələrin müti qulluqçusuna çevrilməyi özünün ən vacib vəzifəsi bilənlər ilə pul xatirinə, mənsəb və vəzifə xatirinə dövlətini və xalqını satmağa hazır olanların "işbirliyi", sövdələşməsi... Bu cinayət olmaqla yanaşı, həm də "ləyaqət" məsələsi idi...



**Niyə məhz 2013-cü il? - Milli şuranın məktubunun şifrəsi...**

Bu çirkin planlar Azərbaycanın ən yeni tarixdə artıq dünyaya tam açıldığı bir dövrdə gücləndi - ölkəmiz 2011-ci ildə BMT Təhşlükəsizlik Şurasına 2 illik üzv seçilmişdi. Qarabağın erməni işğalından azad edilməsi yolunda mühüm bir müvəffəqiyyət əldə olunmuşdu. Məhz belə bir dövrdə, 2013-cü ildə, prezident seçikləri ərəfəsində yaradılmış "Milli şura" adlı təşkilatın xain planların nəticəsi kimi meydana çıxması da təsadüfi deyildi. Hələ o dövrdə, şuranın rəhbərliyinin xarici ölkə prezidentinə yazdığı məktub göstərirdi ki, təşkilatın fəaliyyəti Azərbaycanın dövlət müstəqilliyinə qarşıdır. Onlar bu məktubda "şura"nın fəaliyyətinin dəstəklənməsini xahiş edərək, həmin ölkədə aparılan "islahatlar"ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif ediblər. Başqa sözlə, Azərbaycanın müstəqilliyinin ləğv edilməsi üçün sanki bir təklif irəli sürüblər.

Proseslərin təhlili göstərir ki, Ramiz Mehdiyev sonradan bu təşkilatın fəaliyyətini bütünlüklə əlaltısı Əli Kərimlinin "kurasiyasına" verib. Məhz Ramiz Mehdiyevin göstərişi və Əli Kərimlinin icrası ilə Azərbaycanın dövlət müstəqilliyi, ərazi büyövlü və suverenliyinə qənim kəsilmiş bu şəbəkə ardıcıl olaraq ölkədə gərgin vəziyyət yaratmaq, ictimai sabitliyi pozmaq, Azərbaycanın dövlət maraqlarına qarşı planlar qurmaq və gerçəkləşdirmək istiqamətində fəaliyyət göstərib, ölkənin nüfuzuna xələl gətirmək üçün bütün mümkün vasitələrdən istifadə edib. Maraqlıdır ki, Ramiz Mehdiyev əlində saxladığı bu dəstəni "lazımi anlarda", Azərbaycanın həyati qərarlar verdiyi dövrlərdə, ən mühüm qərarların qəbul edildiyi anda aktivləşdirir, onların "küçə mübarizəsi" adı altında təzyiq kampaniyalar keçirməsini tələb edirdi. "Milli şura"nın, dolayısı ilə Əli Kərimlinin maliyyələşməsinin də qeydinə qalınıb - AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul edilən 933.828,40 manat məbləğində pul vəsaiti, o cümlədən Ramiz Mehdiyevdən və Abbas Abbasovdan əldə edilən maddi vəsaitlər xəyanətkar əməllərin törədilməsinə yönəldilib. Məbləğdən də görünür ki, şəbəkə açıq şəkildə dövlətə qarşı qurulan çirkin planlarının mühüm bir hissəsi kimi çıxıb edib.

**Milli hisslərdən sui-istifadə - xalq və dövlət Qarabağ, xəyanətkar dəstə isə çirkin plan arzusunda idi...**

Bu cinayətkar şəbəkə hətta ən ülvi milli dəyərlərimizi belə özlərinin xəyanətkar planının tərkib hissəsinə çevirməkdən çəkinməyib. 2020-ci ilin yayında, Azərbaycan vacib bir çağırışın ərəfəsində idi - Tovuzda ağır döyüşlər gedirdi, ermənilər yenidən işğal arzularını dilə gətirirdilər, Ermənistanı dəstəkləyən dövlətlər aktiv şəkildə İrəvanı silahlandırırdılar. Belə ağır gündə dövlət və xalq yumruq kimi birləşərək Azərbaycana qarşı olan bu təhdidlə açıq mübarizəyə hazırlaşırdı. Xalqımız öz dövlətinə dəstək üçün, Qarabağın işğaldan azad edilməsində bir nəfər kimi səfərbər olduğunu göstərmək üçün Prezidentinin əmrinə hazır olduğunu bəyan edirdi. Məhz belə çətin, həlledici anda Ramiz Mehdiyevin xəyanətkar dəstəsi yenidən "iş başında" olub - onlar dövlətə dəstək olan şəxslərin səmimi emosiyalarından öz xəyanətkar planları üçün sui-istifadə etməyə çalışıb. DTX-nın yaydığı məlumatda bildirilir ki, " Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar verib". Bəli, Qarabağ acısını, şəhid ağrısını özünün çirkin, ləyaqətsiz planlarının bir hissəsi kimi istifadə etməyə çalışan bu qruplaşma özünü bu qədər alçaltmaqdan belə çəkinməyib...

**Qənimət Zayıdov: xəyanətkar planın xaricdəki icraçısı**

AXCP sədri Əli Kərimlinin vaxtilə Bakıda "gizli kassası" adlandırılan, sonradan isə xüsusi missiya ilə xaricə göndərilən Qənimət Zayıdov bu xəyanətkar planın mühüm bir hissəsinə çevrilib. Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparıb, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilməsi üçün müraciət edib, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyini konkret detallar sadalamaqla vəd edib, eləcə də tərəflər Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşıblar.

Qeyd edək ki, Qənimət Zayıdov hələ 90-cı illərin sonunda AXCP-nin "Azərbaycana qarşı xəyanətə ən hazır adamı" kimi xarakterizə olunurdu. Onun vaxtilə başqa bir dövlətin xüsusi xidmət orqanlarına işlədiyini etiraf etməsi heç kimin yaddaşından silinməyib - hətta, həmin dövrdə bununla bağlı mətbuat konfransı keçirən Zayıdov utanmadan "ikili agent" olmağa belə razılaşdığını etiraf etmişdi.

Sirr deyil ki, xaricdəki söyüş müxalifəti də bu şəbəkə tərəfindən təlimatlandırılıb və idarə olunub. Bunların maddi təminatı məsələsi isə çox güman ki, elə Zayıdov vasitəsilə həyata keçirilib. Təsadüfi deyildi ki, söyüş şəbəkəsinin fəaliyyəti məhz Zayıdovun xarici ölkədə yaşamasından sonra daha da aktivləşmişdi. Bu səbəbdən də güman etmək olar ki, onlar Ramiz Mehdiyevin Əli Kərimliyə verdiyi təlimatları məhz Zayıdovun vasitəsilə əldə edirmiş.

**Xəyanət cəzasız qalmır - ədalət mühakiməsi qarşısında cavab vermək vaxtıdır...**

Artıq Ramiz Mehdiyevin, Əli Kərimlinin, Abbas Abbasovun və şəbəkənin digər üzvlərinin xəyanətkar siması, onların dövlətimizə və xalqımıza, müstəqilliyimizə və konstitusiya quruluşumuza qarşı ardıcıl düşmən fəaliyyəti faktlarla ifşa olunur. Sadalanan cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilib.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilib. Bu fakt Azərbaycan dövlətinin gücünün növbəti nümayişidir. Dövlətin özünün təhlükəsizliyini təmin etmək qüdrəti bütün düşmənlərin planlarının öhdəsindən gəlmək iqtidarındadır.

*Pərviz SADAYOĞLU*

# "Sülh olmayan sülh" paradiqması

ABŞ və Rusiya arasında nüvə silahlarının məhdudlaşdırılmasına dair son müqavilə olan "New START" müqaviləsinin müddəti 5 fevral 2026-cı ildə başa çatdı, bu da dünyanın son nüvə müqaviləsinin bitməsi anlamına gəlir. Bundan sonra nüvə silahlanmasına dair beynəlxalq məhdudiyyətlər praktiki olaraq aradan qalxıb. "New START" müqaviləsi ABŞ və Rusiya arasında strateji nüvə silahlarını məhdudlaşdırmaq üçün nəzərdə tutulmuşdu. Bu müqavilənin müddətinin bitməsi, nüvə silahlarının yerləşdirilməsinə dair dünyanın son əsas məhdudiyyətinin aradan qalxması deməkdir. Rusiya prezidenti Vladimir Putin bu müqavilənin müddətini bir il uzatmağı təklif etsə də, ABŞ bu təklifə razılaşmadı.

**DSNV-nin (SNV-3) süqutu və yeni dövr**

DSNV-nin faktiki olaraq bitməsi ilə ilk dəfə 1960-cı illərdən bəri tam hüquqi vakuum yaranıb. ABŞ-Rusiya münasibətlərində institusional dialoq kanalları iflic vəziyyətinə düşüb. Bu vəziyyət üç əsas strateji risk yaradır. Silahlanma yarışının psixoloji bərpası və real istehsal olmasa belə, qarşılıqlı şübhələr artır. Üstəlik, digər dövlətlər üçün mənfi presedent yaranır. Atom bombası XX əsrin ortalarında bəşəriyyətin tarixində yalnız yeni silah deyil, yeni epoxa yaratdı. 1945-ci ilin avqustunda Xirosima və Naqasakiyə atılan iki bomba 200 mindən artıq insanın həyatına son qoydu, bununla yanaşı, paradoksal şəkildə milyonlarla insanı gələcək dünya müharibəsindən "xilas etdi". Bu xilasetmə isə qanlı idi, qorxulu idi və heç vaxt sülh adlandırıla bilməzdi.

1945-ci ilin oktyabrında Corc Oruell "Sən və atom bombası" adlı qısa, lakin dəhşətli dərəcədə dəqiq məqaləsində xəbərdarlıq edirdi: atom silahı dünyanı müharibəsiz edə bilər, amma azad etməyəcək. O, atom silahına sahib olan azsaylı dövlətlərin bütün bəşəriyyəti girov götürəcəyini proqnozlaşdırırdı. Bu, o dövr üçün ehtimal idi. Bu gün isə statistika ilə sübut olunmuş reallıqdır.

**Nüvə balansı: qorxu üzərində qurulan nizam**

2026-cı ilin yanvarına olan məlumata görə, dünyadakı bütün nüvə başlıqlarının təqribən 90 faizi iki ölkənin - Rusiya Federasiyası (təxminən 4 300) və ABŞ-ın (təxminən 3 700) əlində cəmlənib. Bunun yalnız 1700-ə yaxını hər iki tərəfdə operativ vəziyyətdədir, yəni bir neçə dəqiqə ərzində buraxıla bilər. Bu rəqəmlər sadəcə, statistika deyil - planetin üzərində asılmış Damokl qılıncıdır. Bu iki dövlət eyni zamanda tam nüvə triadasına malik yeganə ölkələrdir: qitələrarası ballistik raketlər, strateji bombardmançı aviasiya, ballistik raketlərlə silahlanmış atom sualtı qayıqları. Məhz bu texniki simmetriya XX əsrin ikinci yarısında "qarşılıqlı məhvetmə təminatı" (MAD - Mutually Assured Destruction) adlı qorxu balansını formalaşdırdı. Nəticə paradoksal oldu: müharibə mümkün idi, amma qalib yox idi.

**Karib böhranı: bəşəriyyətin ölümə ən yaxın anı**

1962-ci ilin oktyabrında dünya faktiki olaraq nüvə müharibəsindən bir neçə saatlıq məsafədə idi. Karib böhranı zamanı ABŞ və SSRİ bir-birinə birbaşa nüvə zərbəsi endirmək həddinə çatdı. Sonradan bilindi ki, sovet sualtı qayıqlarından birində olan nüvə torpedasının buraxılmaması yalnız bir zabitin şəxsi qərarı sayəsində mümkün olub. Bu, dövlət strategiyası yox, insan refleksi idi. Məhz bu böhrandan sonra tərəflər anladılar ki, nüvə silahı nəzarətsiz buraxılarsa, gec-tez istifadə olunacaq.

**Müqavilələr dövrü: qorxunun hüquqla cilovlanması**

1963-cü ildə SSRİ və ABŞ Moskva Müqaviləsini imzaladı - atmosferdə, kosmosda və su altında nüvə sınaqları qadağan edildi. 1968-ci ildə isə Nüvə Silahlarının Yayılmaması Müqaviləsi (NPT) qəbul olundu. Bu sənəd nüvə dövlətlərinə silahsızlanmaya doğru istiqamət götürmək, qeyri-nüvə dövlətlərinə isə atom silahı əldə etməmək öhdəliyi verirdi. 1972-ci ildə imzalanan OSV-1 və ABM (PRO) müqaviləsi artıq texniki səviyyədə qarşılıqlı zəifliyin tanınması idi. ABŞ və SSRİ raketdən müdafiə sistemlərini məhdudlaşdırmaqla etiraf etdilər. Tam qorunma mümkün deyil, çünki tam qorunma qarşı tərəfi daha çox hücuma sövq edir. Bu məntiq 1987-ci ildə RSMD Müqaviləsi ilə pik nöqtəsinə çatdı - bütöv bir raket sinfi məhv edildi. Bu, tarixdə nadir hadisə idi. Silahlar sadəcə azaldılmadı, fiziki olaraq ləğv edildi.

**"Soyuq müharibə"nin sonu və təhlükəli arxayınlıq**

1991-ci ildə imzalanan SNV-1 müqaviləsi hər tərəfin arsenallarını 6000 başlığa, daşıyıcıları isə 1600 vahidə endirməyi nəzərdə tuturdu. Daha sonra SNV-2 və nəhayət, 2010-cu ildə SNV-3 (DSNV) ilə bu rəqəmlər 1150 başlıq və 700 daşıyıcıya qədər azaldıldı. Lakin bu azalma sülh yaratmadı, sadəcə, illüziya yaratdı. Müqavilələrin sonu nəzarətsiz dövrün başlanğıcı oldu. 2020-ci illərdə bu sistem çökməyə başladı. ABŞ 2002-ci ildə ABM müqaviləsindən çıxdı. 2019-cu ildə RSMD faktiki olaraq ləğv edildi. Rusiya 2023-cü ildə DSNV-də iştirakını dayandırdı. 2026-cı ildə isə sonuncu böyük nüvə müqaviləsinin müddəti bitdi. Bu, 60 ildən artıq davam edən nəzarət arxitekturasının tam dağılması deməkdir. İndi isə heç bir hüquqi tavan yoxdur, heç bir yoxlama mexanizmi yoxdur, heç bir məcburi şəffaflıq qalmayıb.

**Çin, Avropa və yeni nüvə iştahı**

Çinin təxminən 600 nüvə başlığı var və bu rəqəm sürətlə artır. Pekin açıq şəkildə bildirir: paritet olmadan danışıqlar olmayacaq. Fransa (?300), Böyük Britaniya (?225), Hindistan və Pakistan (?170-172), İsrail (təxminən 90-100), Şimali Koreya (?50) - hamısı öz regional qorxu balansını qurur. Daha təhlükəlisi isə nüvə silahı olmayan ölkələrdə başlayan açıq müzakirələrdir: Kanada, İsveç, Yaponiya. Bu, NPT-nin ruhunun deqradasiyasıdır.

Nüvə silahı bəşəriyyəti xilas etmir, sadəcə ona möhlət verir. Müqavilələr bu möhləti uzadır. İndi isə o möhlət başa çatıb. Bu gün dünya müharibəyə yox, hesablanmamış səhvə daha yaxındır. Çünki qaydalar yoxdursa, instinkt qalır. İnstinkt isə tarix boyu ən zəif təhlükəsizlik mexanizmi olub. Əgər yeni nəzarət formaları yaranmasa, növbəti böyük sənəd yenə də qanla yazılacaq. Tarix göstərir ki, atom dövründə bütün qaydalar əvvəlcə pozulur, sonra kağıza köçürülür. Tarix göstərir ki, nüvə silahı heç vaxt sülhün qarantı olmayıb, sadəcə, müharibənin formasını dəyişib. Tankların yerini rəqəmlər, diviziyaların yerini doktrinalar, cəbhələrin yerini isə qərargah masaları tutub. Lakin dəyişməyən bir həqiqət var: nüvə silahı mövcud olduğu müddətdə dünya təhlükəsiz deyil, sadəcə partlamır. Bu günkü təhlükə qaydaların yoxluğundadır. Müqavilələr pozulduqca qərarvermə texniki mexanizmlərdən çıxıb emosional və siyasi instinktlərin öhdəsinə keçir. Halbuki atom epoxasında instinkt ölümcül zəiflikdir. Bir səhv siqnal, bir yanlış kəşfiyyat hesabatı, bir gecikmiş telefon zəngi... və tarix artıq diplomatik terminlərlə deyil, radioaktiv izotoplarla yazılar.

Ən təhlükəli illüziya isə budur: guya, nüvə müharibəsi hələ də "idarə oluna" bilər. Tarix buna heç vaxt zəmanət verməyib. Karib böhranında dünya xilas olmadı - sadəcə, təsadüfən məhv olmadı. Təsadüf isə strategiya deyil. Bu mənada, bugünkü vəziyyət keçmişdən daha təhlükəlidir. Çünki əvvəl qaydalar vardı, ancaq pozulurdu. İndi isə qayda yoxdur. Atom sükutu sülh yox, yalnız fasilədir və bu fasilənin nə vaxt bitəcəyini heç kim bilmir.

**Yeni atom dövrü üçün qaçılmaz addımlar**

1. Nəzarətin tam bərpası yox, minimum çərçivənin yaradılması

Yeni reallıqda köhnə tipli, genişmiqyaslı, hüquqi baxımdan sərt müqavilələrin imzalanması real deyil. Lakin bu, nəzarətsizliyin qaçılmaz olması da demək deyil. Minimum hədəf: yerləşdirilmiş strateji başlıqlar üçün qeyri-rəsmi, lakin qarşılıqlı tanınan yuxarı hədd; texniki yoxlama mexanizmlərinin qismən bərpası (peyklər, məlumat mübadiləsi).

2. Böhran kommunikasiya xətlərinin gücləndirilməsi

Nüvə müharibəsi daha çox qəsddən deyil, anlaşılmazlıqdan doğa bilər. Buna görə: ABŞ-Rusiya, ABŞ-Çin, Rusiya-Çin arasında daimi institusional böhran rabitə xətləri yaradılmalı, bu xətlər siyasi yox, hərbi-strateji səviyyədə işləməlidir.

3. Çinlə dialoq üçün yeni stimullar

Çini klassik "böyük üçlük" modelinə məcbur etmək mümkün deyil. Bunun yerinə regional təhlükəsizlik zəmanətləri, raketdən müdafiə sistemləri üzrə şəffaflıq, kosmos və kiber sahədə qarşılıqlı məhdudiyyətlər təklif edilməlidir. NPT-nin formal deyil, funksional islahatı. NPT müqaviləsi kağız üzərində yaşayır, praktikada isə aşınır. Yeni yanaşma tələb olunur: nüvə dövlətləri üçün real azaldıcı öhdəliklər, latent proliferasiya riskləri üçün xüsusi mexanizmlər, "nüvə çətiri" anlayışının hüquqi çərçivəsinin yenidən gözdən keçirilməsi.

4. Süni intellekt və avtomatlaşdırılmış qərarverməyə qadağalar

Ən təhlükəli ssenari nüvə qərarlarının alqoritmlərə həvalə edilməsidir. Tövsiyə: erkən xəbərdarlıq sistemlərində süni intellekt yalnız məsləhətçi rol almalı, insan təsdiqi olmadan heç bir nüvə qərarının verilməməsi barədə razılaşmalar əldə olunmalıdır. Nüvə silahı ilə bağlı əsas problem onun gücü deyil; əsas problem odur ki, bəşəriyyət onu icad etdiyi sürətlə idarə etməyi öyrənə bilmədi. İndi zaman daha az, oyunçular daha çoxdur, səhvlərin qiyməti isə dəyişməz qalıb. Əgər bu dəfə də qaydalar gecikərsə, tarix bir daha sübut edəcək ki, atom dövründə ən böyük risk silah deyil, məsuliyyətsizlikdir.



*Kəramət QƏNBƏROV,*
*Beynəlxalq hüquq üzrə ekspert*

# Məğlubiyyətdənsə müharibəyə davam...

Ukrayna-Rusiya müharibəsi hazırda beynəlxalq aləmi düşündürən ən mühüm məqamlardan biridir. 4 ildir ki, davam edən bu müharibə yalnız Avropanın mərkəzində deyil, bütövlükdə Avrasiyada gərgin bir vəziyyət yaradıb. müharibənin yekunlaşmaması həm iqtisadi, həm siyasi. həm də hərbi nizama yeni ştrixlər əlavə edir, yeni dövrdə münasibətlər sisteminin formalaşmasına təsir göstərir. Sirr deyil ki, hətta Qərb koalisiyasında belə müharibəyə münasibət birmənalı deyil. Bir sıra aparıcı Qərb dövlətləri münaqişənin sülh və danışıqlar yolu ilə tənzimlənməsi üçün fəaliyyət nümayiş etdirsə də, "köhnə qitə"nin bəzi təmsilçiləri sülhün sonradan Avropaya təhdid yaradacağı düşüncəsindədir.

## Kiyev geri çəkilmir

### Son görüş...

Artıq münaqişənin aradan qalxması istiqamətində ardıcıl danışıqlar prosesi reallaşır. ABŞ-ın vasitəçiliyi ilə aparılan bu proses bir sıra yeni konturları ilə seçilsə də, tərəflər arasında konsensusun yaradılması çətin görünür. Hətta bu ilin yanvarında və fevralında Əbu-Dabidə baş tutan görüşlər belə demək olar ki, nəticəsiz başa çatdı - ortada olan "sülh şərtləri" qəbul olunmur. Belə ki, Rusiya irəli sürdüyü şərtlərdə Ukrayna qoşunlarının Donetsk, Luqansk, Xerson və Zaporojye vilayətlərinin inzibati sərhədləri daxilindəki bütün ərazilərindən çıxarılması, Ukraynanın NATO-ya qoşulmaqdan imtina etməsi və Rusiya əleyhinə sanksiyaların ləğvini ehtiva edir. Ukrayna isə irəli sürülən bu şərtlərlə qismən razılaşır - ən mühümü isə, Kiyev təhlükəsizlik zəmanəti istəyir. Əbu-Dabidə baş tutan son görüşün ən mühüm nəticəsi isə "157-yə 157" formuluna uyğun olaraq əsirlərin dəyişdirilməsidir.

### Ukrayna məğlubiyyətlə barışmaq niyyətində deyil

Ukrayna Prezidenti Volodimir Zelenski "The Atlantic" nəşrinə müsahibəsində bildirib ki, müharibənin başa çatması ilə bağlı yaxşı saziş imzalamaq imkanı olmasa, Ukrayna Rusiya ilə mübarizəni davam etdirməyə hazırdır. Nəşrin məlumatına görə, ölkə prezidentinin yaxın ətrafının bəzi üzvləri Ukrayna ilə Rusiya arasında sülh sazişinin bağlanması üçün imkan pəncərəsinin bağlanmasından narahatlıq keçirirlər. Onların fikrincə, əgər bu bahar müharibənin başa çatması haqqında razılaşma əldə olunmasa, Kiyevi illərlə davam edəcək hərbi əməliyyatlar gözləyir. "The Atlantic" yazıb ki, Zelenski, öz növbəsində, müsahibəsində xalqını pis sövdələşməyə razı salmaqdansa, ümumiyyətlə, sazişdən imtina edəcəyini vurğulayıb. Həmçinin Ukrayna Prezidenti dörd illik tammiqyaslı müharibədən sonra mübarizəni davam etdirməyə hazır olduğunu əminliklə qeyd edib. "Ukrayna uduzmur", - deyə o, döyüş meydanındakı vəziyyəti şərh edərkən bildirib. Ukrayna lideri, həmçinin ABŞ Prezidenti Donald Trampın Rusiya-Ukrayna müharibəsini bitirmək səylərini də şərh edib. "Tramp üçün Rusiya və Ukrayna arasındakı müharibəni dayandırmaqdan böyük qələbə yoxdur. Onun irsi üçün bu, bir nömrəli vəzifədir. Tramp üçün ən sərfəli vəziyyət bunu aralıq seçkiləri qədər (2026-cı ilin noyabrı - red.) etməkdir", - deyə Zelenski bildirib: "Bəli, o, ölümlərin daha az olmasını istəyir".

Xatırladaq ki, RBC-nin məlumatına görə, 7 fevralda Ukrayna prezidenti ABŞ-ın Kiyevin Rusiya ilə hərbi münaqişəyə 2026-cı ilin yayının əvvəlinə qədər son qoymasını təklif etdiyini açıqlamışdı.

### Rusiya nə istəyir?

Qeyd edək ki, fevralın əvvəlində Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov qeyd etmişdi ki, Ukrayna münaqişəsinin həlli mürəkkəb, çoxşaxəli bir prosesdir. "Bəzi məsələlərdə biz razılığa gəlmişik, digər məsələlərdə isə hələ ki, buna nail olunmayıb", - deyə Peskov şərh etmişdi. Rusiya xarici işlər naziri Sergey Lavrov isə bildirmişdi ki, sülh yolu ilə həll üçün hər hansı təklif Rusiya üçün məqbul olub-olmaması və dəfələrlə səsləndirilən Birgə Hərbi-Strateji Əməkdaşlıq (BHƏƏ) məqsəd və vəzifələri ilə uyğunluğu baxımından araşdırılmalıdır. XİN başçısı fevralın 10-da NTV-yə verdiyi müsahibədə Ukrayna ilə bağlı danışıqları uzun bir yol adlandırmışdı: "Ukraynada sülhə nail olmaq istəyiriksə, bu, yaxşıdır, amma hələ ki, biz buna nail olmamışıq".

Xarici işlər nazirinin müavini Aleksandr Qruşko isə deyib ki, "Avropa İttifaqı liderlərinin bütün açıqlamalarına diqqətlə baxsanız, heç kim Rusiya üçün təhlükəsizlik zəmanətlərindən danışmır. Və bu, razılaşmanın əldə edilməsində əsas elementdir. Bunsuz heç bir sülh müqaviləsi mümkün deyil".



### Danışıqlar davam edir...

Ukrayna xarici işlər naziri Andrey Sibiqa "Reuters" agentliyinə verdiyi müsahibədə sülh danışıqlarındakı irəliləyişdən danışıb - bildirib ki, "Biz bu sülh səylərini gücləndirməli və ya səfərbər etməliyik və bu prosesi sürətləndirməyə hazırıq". Ukrayna xarici işlər nazirinin sözlərinə görə, münaqişəni yalnız ABŞ prezidenti Donald Tramp dayandıra bilər. Lakin bir neçə "ən incə və mürəkkəb" məsələ hələ də həll olunmayıb.

Yeri gəlmişkən, 10 fevralda Ukrayna prezidenti Volodimir Zelenski təhlükəsizlik zəmanətləri ilə bağlı sənədlərin hazırlanması üzrə işlərin başa çatdığını elan edib. O, bu faktı "Telegram" kanalında belə şərh edib: "Təhlükəsizliyə alternativ yoxdur. Sülhə alternativ yoxdur. Dövlətimizi yenidən qurmağın alternativi yoxdur. Etibarlı təhlükəsizlik zəmanətləri sülhün yeganə real əsasıdır."

### Avropa da artıq "danışıqlar"deyir...

Qeyd edək ki, artıq Aİ-nin də məsələyə yanaşmasında bəzi fərqli ştrixlər müşahidə olunur. Belə ki, fevralın əvvəlində Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas Ukraynanın danışıqlarda çox çətin güzəştlərə getməyə hazır olduğunu bildirmişdi. Kallasın sözlərinə görə, ukraynalılar bunu etməyə hazırdırlar, çünki onlar həqiqətən müharibəyə son qoymaq istəyirlər. Daha sonra Aİ-nin baş diplomatı "Euronews"a verdiyi müsahibədə Rusiyanın avropalılarla danışıqlar masasına oturmayacağını açıqlamışdı: "Sual nəyə nail olmaq istədiyimizdədir. Bu, fərdin özü ilə bağlı deyil, Rusiya tərəfindən real güzəştlər almaqla bağlıdır".

Avropa siyasətçiləri son zamanlar tez-tez Rusiya ilə təmaslara hazır olduqlarını bildirirlər. Lakin onlar dərhal xəbərdarlıq edirlər ki, bunlar ciddi şəkildə əlaqələndirilməli (Ukrayna ilə də daxil olmaqla) və ölkə liderləri tərəfindən razılaşdırılmalıdır. Məsələn, Almaniya kansleri Fridrix Merts potensial eskalasiyaya səbəb ola biləcək danışıqlarda iştirak etmək istəmədiyini bildirib: "Amma mən bu müharibəyə son qoymaq məqsədinə xidmət edən bütün danışıqları dəstəkləmək istəyirəm."

Fransa prezidenti Emmanuel Makron da bu yaxınlarda mütəşəkkil Avropa yanaşması haqqında danışıb: "Həddindən artıq çox həmsöhbət olmamalıdır; mandat, sadə təmsilçilik lazımdır - özümüzü necə təşkil edəcəyimizi görəcəyik, amma Rusiya ilə dialoqu bərpa etmək imkanı olmalıdır. Niyə?" Çünki sülh gələn gün həmin sülh Avropaya da şamil olunacaq."

*P.İSMAYILOV*

# “NATO 3.0” modeli...

## Avropa ilə ABŞ alyans çərçivəsində əməkdaşlığın yeni mərhələsinə hazırlaşır

Avropa ilə ABŞ Şimali Atlantika Alyansı (NATO) çərçivəsində əməkdaşlığın yeni mərhələsinə keçməyə hazırlaşır. ABŞ-ın müharibə nazirinin müavini Elbric Kolbi NATO-nun Baş Qərargahında keçirilən alyansın müdafiə nazirlərinin iclasından əvvəl jurnalistlərə açıqlamasında bildirib ki, Avropa və ABŞ-ın NATO çərçivəsində birgə fəaliyyəti asılılıq prinsipi deyil, bərabərhüquqlu tərəfdaşlıq əsasında qurulmalıdır və bu, yeni “NATO 3.0” versiyasının formalaşmasına gətirib çıxarmalıdır.

Kolbi qeyd edib ki, 2025-ci ildə ABŞ Prezidenti və NATO-nun Baş katibinin liderliyi ilə alyans daxilində yenidən qiymətləndirmə aparılıb, Avropanın NATO-nun ənənəvi müdafiəsinə rəhbərlik etməsi ideyasına real və səmimi bağlılıq yaranıb. Pentaqon rəhbərinin müavini əlavə edib ki, NATO-nun tərəfdaşlıq üzərində qurulmuş “NATO 3.0” modelinə keçidi təşkilatın ilkin məqsədinə qayıdışı ifadə edəcək: “Həqiqətən möhkəm tərəfdaşlıq fəaliyyəti üçün əsas var. Bunun üçün NATO-nu asılılıq üzərində deyil, tərəfdaşlıq üzərində qurulmuş, alyansın başlanğıc məqsədinə geri dönməsini təmin edən bir növ “NATO 3.0”-a çevirməliyik”.

### Bərabərhüquqlu tərəfdaşlığa əsaslanan yeni konsept

Qeyd edək ki, “NATO 3.0” alyansın müdafiə və çəkindirməyə fokuslandığı, Avropanın konvensional müdafiədə rəhbər rolu oynadığı, ABŞ-dan asılılıq əvəzinə bərabərhüquqlu tərəfdaşlığa əsaslanan yeni konseptidir. Bu yanaşma, 2025-ci ildə ABŞ və NATO rəhbərliyinin təşəbbüsü ilə başlayan köklü islahatların davamıdır. Belə ki, bu konsept 2025-ci ildə ABŞ Prezidenti Donald Trampın və Mark Ruttenin NATO Baş katibi kimi fəaliyyəti sayəsində yaranan yeni yanaşmanı əks etdirir.

“NATO 3.0”-ın əsas xüsusiyyətlərinə gəlincə, vurğulandığı kimi, bu ilk növbədə asılılıq deyil, tərəfdaşlığı özündə ehtiva edir. Yəni, Avropa ölkələri müdafiə xərclərini və məsuliyyətini artıraraq, ABŞ-ın birbaşa dəstəyinə olan yüksək asılılığı azaltmalıdır. İkincisi, Avropa dövlətləri konvensional (ənənəvi) müdafiənin əsas hərəkətverici qüvvəsinə çevrilməlidir. Bundan başqa, “NATO 1.0”-a qayıdış: Alyansın ilk yaranma məqsədinə-birgə müdafiə və çəkindirməyə fokuslanmasıdır. Burada realizm və praqmatizm də ön sıralarda dayanır. Yəni, ABŞ-ın milli müdafiə strategiyasına uyğun olaraq daha çevik və real təhdidlərə əsaslanan müdafiə strukturu formalaşmalıdır.




### ABŞ Avropadan tələb edir

Nəzərə alaq ki, ABŞ Avropanın təhlükəsizlik məsuliyyətini daha çox öz üzərinə götürməsini tələb edərək, NATO-da struktur islahatları və komandanlığın avropalı zabitlərə təhvil verilməsini istəyir. Bu islahatlar çərçivəsində, Neapol və Norfolkdakı Birləşmiş Qüvvələr Komandanlığı avropalıların rəhbərliyinə keçəcək, ABŞ isə daha aşağı statuslu, lakin əməliyyatlar üçün vacib olan Hərbi Hava, Dəniz və Quru Qoşunları Komandanlıqlarını idarə edəcək.

Əsas islahat tələbləri və struktur dəyişiklikləri ondan ibarətdir ki, Avropa Mərkəzli Komandanlığında ABŞ dominantlığını azaltmaq üçün NATO-nun hərbi rəhbərliyində avropalı müttəfiqlərin, o cümlədən yeni üzvlərin rolu artırılır. Vaşinqton bəyan edib ki, bu islahatlarda məqsəd NATO-nu dağıtmaq deyil, Avropanın təhlükəsizlik xərclərinin və məsuliyyətinin təkcə Amerika vergi ödəyiciləri deyil, həm də Avropa ölkələri arasında tarazlaşdırılmasıdır. Əməliyyat strukturuna gəlincə, ABŞ alyans daxilində Hərbi Hava, Dəniz və Quru Qoşunları komandanlıqlarını özündə saxlayaraq strateji rolu davam etdirməyi nəzərdə tutur.

NATO-ya münasibətdə skeptik mövqeyi ilə tanınan Donald Tramp Avropa ölkələrinin təkcə müdafiə xərclərini artırmasını deyil, həm də bu vəsaitləri Amerika hərbi sənayesinə yönəltməsini istəyir. Ona qarşı çıxan Fransa prezidenti Emmanuel Makron isə Avropa İttifaqının ABŞ-dan asılılığını azaltmalı və ümumavropa müdafiə sektorunu inkişaf etdirməli olduğunu vurğulayır. Vaşinqton bir neçə dəfə NATO-nun Avropadakı üzvlərinə müraciət edərək, alyansı dəstəkləmək üçün ABŞ-dan daha çox silah və sursat almalarını tələb edib.

Yenidən hakimiyyətə qayıdan Tramp fəaliyyətə başladığı ilk vaxtlarda NATO üzvlərindən müdafiəyə ÜDM-in 5 faizinin ayırmalarını tələb etmişdi. İndiyədək bu göstərici 2 faiz təşkil edirdi. “Bloomberg”in mənbələrinə görə, amerikalılar Avropanın ABŞ silahlı qüvvələri ilə daha yüksək səviyyədə operativ uyğunluğa nail olması və Amerika müdafiə şirkətlərinə daha çox sərmayə yatırması halında bu tələbi yumşalda biləcəklərini bildiriblər. Raket sistemləri, sursatlar, kibersilahlar və digər sahələrdə uyğunluğu artırmaq üçün Avropa ölkələrinin daha çox Amerika müdafiə şirkətləri ilə müqavilə bağlaması tələb olunur. Tramp daha əvvəl onu da bəyan etmişdi ki, NATO-nun 2 faizlik müdafiə xərci tələbinə əməl etməyən ölkələr Rusiya tərəfindən hücuma məruz qalsa, ABŞ onları qorumaq niyyətində deyil: “Xeyr, mən sizi müdafiə etməyəcəyəm. Hətta onlara (Rusiyaya) istədiklərini etməyə icazə verəcəyəm. Siz borclarınızı ödəməlisiniz”.

Pentaqonun rəhbəri Hegset də bildirib ki, ABŞ artıq Avropanın təhlükəsizliyinin zəmanətçisi kimi çıxış edə bilməz. Vaşinqtonun tənqidlərindən sonra NATO-nun Avropa müttəfiqləri alyans üçün xərclərini müəyyən qədər artırsalar da, bu, ABŞ-ı qane etmir. Vaşinqton ardıcıl şəkildə bildirir ki, Avropa ölkələrinin əksəriyyəti müdafiə sahəsinə kifayət qədər vəsait ayırmır. ABŞ ümumi NATO müdafiə xərclərinin təxminən 70 faizini qarşılayır və bu göstərici “ədalətsiz yük bölgüsü” kimi qiymətləndirilir. Bir çox siyasətçilər, xüsusilə Qərbi Avropadan olan politoloqlar Vaşinqtonun mövqeyini daha çox siyasi təzyiq aləti kimi dəyərləndirirlər. Onların fikrincə, bu bəyanatlar əsasən Avropa üzvlərini müdafiə xərclərini artırmağa vadar etmək məqsədi daşıyır.

### “Bu yükü biz öz üzərimizə götürməliyik”

ABŞ-ın bu mövqeyinə qarşı olan əsas dövlətlərdən biri Fransadır. Bu ölkə Avropada hegemonluq rolunu oynamaq üçün özünü qitədə güc mərkəzlərindən biri kimi təqdim etməyə çalışır. Təsadüfi deyil ki, prezident Makron uzun müddətdir Avropanın məhz Avropa istehsalı olan silahları almasının vacibliyini vurğulayır. “Financial Times” nəşrinə müsahibəsində o, Aİ-nin öz müdafiə sənayesini mümkün qədər tez və fəal şəkildə inkişaf etdirməsinin vacib olduğunu bildirib. Bu məqsədlə dövlət investisiyalarının artırılmasını, ortaq satınalmaların təşkilini və Avropa ölkələri arasında müdafiə sənayesi sahəsində transsərhəd birləşmələrin həyata keçirilməsini təklif edib. Onun fikrincə, bu, hazırda parçalanmış olan sektoru konsolidasiya edərək, qlobal rəqabətə davamlı iri müdafiə şirkətləri yaratmağa kömək edəcək.

Makron Avropanın ABŞ silahlarından asılılığını azaltmalı olduğunu bildirərək, Aİ ölkələrinə Fransız-İtaliya istehsalı olan SAMP-T hava hücumundan müdafiə sistemini almağı təklif edib. Onun sözlərinə görə, bu sistem bir sıra Aİ ölkələrinin istifadəsində olan Amerikanın “Patriot” kompleksindən daha üstündür: “Ola bilsin ki, bəzi şəxslər hələ də müdafiə xərcləri ilə bağlı rəqəmlər üzərində mübahisə aparmaqda davam edirlər. Lakin biz tam inteqrasiya olunmuş Avropa müdafiə, sənaye və texnoloji bazasını yaratmalıyıq. Əgər ABŞ-dan asılılığımızı daha da artırsaq, 20 ildən sonra Avropa suverenliyini təmin edə bilməyəcəyik”. Bununla belə, Makron Avropanın müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırmalı olduğunu qəbul edir: “Tramp Avropaya deyir: “Bu yükü siz daşımalısınız”. Mən isə deyirəm: Bu yükü biz öz üzərimizə götürməliyik”.

Göründüyü kimi, mövcud vəziyyət NATO daxilində islahatları qaçılmaz edir. Uzun illər ABŞ-ın müdafiə çətirinin altına yığışan Avropa ölkələri özlərinin müdafiə qabiliyyətini artırmalıdır.

***N.BAYRAMLI***

# Azercell-in dəstəyi ilə “RobotChallenge 2026” üzrə Azərbaycanda milli seçim mərhələsinin hazırlıq işləri davam edir




Beynəlxalq Robot Olimpiadasının (“RobotChallenge”) Azərbaycanda keçiriləcək yerli mərhələsinə hazırlıq işləri uğurla davam edir. Azercell-in dəstəyi ilə həyata keçirilən layihə ölkədə innovasiya, texnologiya və STEAM sahələrinə marağın artmasına töhfə verir. Mobil operator yarışın milli seçim mərhələsinin rəsmi sponsorlarından biri olaraq gənclərin texnoloji bilik və bacarıqlarının inkişafını təşviq edir.

Hazırlıq mərhələsi çərçivəsində müxtəlif dövlət məktəblərində və özəl təhsil mərkəzlərində “RobotChallenge” ilə bağlı maarifləndirici tədbirlər baş tutub, bir sıra yerli universitetlərdə infosessiyaların təşkili planlaşdırılıb. Həmçinin şagird və tələbələr üçün seminarların, sahə mütəxəssislərinin iştirakı ilə panel müzakirələrin, interaktiv təlimlərin də həyata keçirilməsi nəzərdə tutulub.

Olimpiadanın əsas məqsədi robototexnika və STEAM (Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat) yönümlü biliklərə marağı gücləndirmək, istedadlı məktəbliləri aşkar etmək və onların beynəlxalq səviyyədə çıxışını təmin etməkdir. Milli seçim mərhələsində yüksək nəticə göstərən komandalar Azərbaycanı Çində keçiriləcək beynəlxalq finalda təmsil edəcəklər.

Xatırladaq ki, yarışa qeydiyyat proqramlaşdırma istiqaməti üzrə (onlayn formatda) 18 fevral 2026-cı il, robototexnika istiqaməti üzrə isə 25 mart 2026-cı il tarixinədək açıqdır.

“RobotChallenge 2026” barədə ətraflı məlumat və qeydiyyat üçün məktəblilər və komandalar www.robotchallenge.az saytına müraciət edə bilərlər.

# Yazılmamış epopeyanın xülasəsi

## Professor Müseyib İlyasovun “Maarif fədaisi: Müseyib İlyasov” adlı kitabı üzərində gəzişmələr

**əvvəli ötən saylarımızda**

...Bir dəfə birlikdə Kəlbəcərdəki İstisuya gedirdik. Dumanlı-çiskinli bir gün idi. Mıxtökən deyilən yerdə dincəlmək üçün atlardan düşüb bir alaçığa yaxınlaşdıq. Alaçıq yiyəsi Müseyib əmini tanıyıb bizi hörmətlə qarşıladı. Getmək vaxtı çatanda atların dumana qərq olduğunu görüb onları axtarmağa başladım. Atları tapanda əlində tüfəng, çiynində yapıncı bir nəfərlə rastlaşdım. Kimliyimi soruşdu, əmimin adını eşidən kimi mənə qoşulub alaçığa gəldi. Görüşdülər, əmim ona: “Yusif bəy, bu nə tüfəng, bu nə geyimdir?” deyəndə bəy ona təqib olunduğunu, bu səbəbdən qaçaq düşdüyünü bildirdi. Əmim ondan soruşdu: “Bakıya gedə bilərsənmi?” Yusif bəy cavabında dedi ki, bəli, gedə bilər. Əmim kağız, qələm götürüb bir məktub yazdı, tapşırdı ki, Bakıda filankəsi tapıb bu kağızı ona çatdırsın. Yusif bəy həmin məktubun hesabına “üzə çıxdı”, ömrünün sonunacan Bakıda cürbəcür vəzifələrdə çalışdı...

...Müseyib əminin dostu-simsarı çox idi, evinin qapısı qohum-qardaş, tanış-biliş üzünə həmişə açıq olardı. Süleyman Rəhimov, Əli Vəliyev bu evə tez-tez gələrdi. Bir dəfə onlarla birgə Musa Şəmsəddinski adlı bir məsul şəxs də qonaq gəlmişdi. Söhbət zamanı o, Kommunist Partiyasına üzv keçməsi üçün əmimə çox təkid göstərdi. Əmim onda da, sonralar da bu işə razılıq vermədi. Səbəbini soruşanda deyərdi ki, mən maarifçiyəm, xalqın savadlanmasına çalışıram, partiya mənlik deyil...”

***

Kitabda Süleyman Rəhimovun, Əli Vəliyevin Müseyib əfəndi haqqında yazdıqlarına da yer verilib. Süleyman Rəhimovun “Dağlar məni səslədi (xatirat və təəssürat)” adlı povestindən:

“Laçının Oğuldərə kəndindən çıxan, inqilabdan əvvəl məşhur Qori seminariyasını bitirən, Şuşada açılan darülmüəllimin ilk təşkilatçısı və müdirlərindən olan, sonralar qəza maarif şöbəsinin müdiri vəzifəsində çalışan Müseyib İlyasov bir fədai-mücahid kimi hərəkət edir, dağ obalarının hamısına maarifin, mədəniyyətin yayılmasına çalışır, cəhalətə qarşı sözün əsl mənasında çarpışırdı”. (“Azərbaycan” jurnalı, 1967, №11)

Əli Vəliyevin “Onları unutmaq olmaz” adlı məqaləsindən:

“Qəza kəndlərində məktəb binası yox idi. Yeni binalar tikmək, uşaqları məktəbə cəlb etmək məqsədilə qəza maarif şöbə müdiri Müseyib İlyasovun işgüzar fəaliyyətini xüsusilə qeyd eləmək lazımdır. Qəzanın Oğuldərə kəndindən olan Müseyib İlyasov Qori seminariyasını qurtarmış, Şuşa seminariyasında işləmiş, maarif cəbhəsinin fədaisi kimi hörmət qazanmışdı... Müseyib İlyasov tikilən məktəb binalarını vaxtaşırı yoxlayır, hər cür köməklik göstərib işləri sürətləndirirdi.

Müseyib İlyasov müəllimlərin qəza mərkəzinə çağırılmasına nadir hallarda razılıq verərdi. Onun həm özü, həm də inspektorlar məktəbə gedər, müvəffəqiyyət və nöqsanları yerində görər, məktəbə lazımi yardım göstərərdi.

Müseyib İlyasov müəllimlər qarşısında çıxış edəndə bir məsələni həmişə xatırladardı: “Xalq müəlliminin ümdə vəzifəsi savadlı, bilikli, mədəniyyətli şagird və tələbə tərbiyə etməkdən ibarətdir”.

Qəza zəhmətkeşləri arasında dərin hörmət qazanmış Müseyib İlyasov müəllim kadrları hazırlamaq məqsədilə son sinif tələbələrinin savadlılarından Şuşa yay pedaqoji kurslarına göndərər, yeni dərs ilində onları müəllim təyin edərdi.

Müseyib İlyasov həm təvazökar, həm də qayğıkeş idi. Öz üzərində işləməyən, sinfə hazırlıqsız girən, konspektsiz dərs deyən müəllimlərdən acığı gəldiyi kimi, bacarıqlı, bilikli, zirək, işlək, gündən-günə irəli gedən müəllimlərə hər cür qayğı göstərər, kömək əlini uzadardı”. (“Sovet kəndi” qəzeti, 1974-cü il)

***

Bunlarla yanaşı, Əli Vəliyev “Qohumlar”, “Samovar tüstülənir” povestlərində, “Nurlu və nəcib şəxsiyyət” (“Azərbaycan müəllimi” qəzeti, 28 iyun 1968-ci il) məqaləsində, bir sıra başqa əsərlərində də Müseyib İlyasovun şəxsiyyətindən, maarifçilik fəaliyyətindən geniş bəhs açıb. Müəllif yazır: “Hətta Müseyib əfəndinin qardaşı Mirzə Əlinin nəvəsi mərhum Ağa Laçınlının uzun illər əvvəl mənə dediyinə görə, bir dəfə



**M.İlyasovun həbsxana şəkli.**
**24 sentyabr 1941-ci il**

Əli Vəliyev ona etiraf eləyib ki, “Budağın xatirələri” romanındakı Mütəllib əfəndi obrazının prototipi də şairin Müseyib babasıdır”.

Daha sonra müəllif nəslinin “görkəmli şəxsiyyətlərindən biri” kimi hörmətlə andığı şair Ağa Laçınlının Süleyman Rəhimovla bağlı xatirə yazısından bir parçanı oxucuya təqdim eləməyi də lazım bilir:

“Süleyman Rəhimovla ilk tanışlığımız Bakıda onun qonaqlı-qaralı evində oldu. Bir axşam zəngsiz-filansız evinə getmişdim. Payım da ilk şeirlər kitabım idi. Qapını üzümə özü açdı. “Utanma, utanma, keç içəri” deyib hal-xoş elədi. Kimliyimi soruşub bildi. Kitabı verdim. Elə dəhlizdəcə o çərəkəni dodağına aparıb öpdü. Sığalladı. Gözaydınlığı verdi. Onun sevinci məni mat qoymuşdu. Öz-özümə dedim: “Bu kişi nəyə görə belə sevinir?”

Kitabça onun qalın-qalın əsərlər yazmış iri əlində bir tikə çörək boyda görünürdü. Qolumdan yapışıb məni yekə iş masası qoyulmuş orta otağa apardı. Sözə özü başladı:

- Hə, igidin adını eşit, üzünü də gör. Sən Laçının hansı kəndindənsən?

- Oğuldərədənəm.

- Belə de! Olmaya İlyasovlardansan? Bir suyumun həkim Əhmədə, həkim Heydərə oxşayır.

- Düz bilmisiniz. Əhmədin, Heydərin qardaşı oğluyam.

- Bəs Müseyib əfəndinin?

- Onun da qardaşı nəvəsiyəm.

Bir anlığa gözləri aşağıya zilləndi. Dərindən köks ötürdü.

- Hayıf Müseyibə, çox hayıf! - dedi. - Müseyib yara olub köksümüzə yapışdı. Onun kimi maarifçi az-az tapılar. Nə suçu vardı yazığın? Müseyib əfəndi Bakıda, Şuşada da böyük maarif işləri aparmışdı. Özü də bir çoxları kimi tamamca havayı güllənin qurbanı oldu. Büllur adam idi, əvəzsiz adam idi. O tutulanda mən mərkəzi komitədə işləyirdim. Bir gün Müseyib barəsində ağız açmaq üçün Mircəfər Bağırovun yanına getdim. Kefinin duru yeri idi. Sözümü axıracan dinlədi. Dəstəyi götürüb kiməsə zəng vurdu. Telefonda ona nəsə dedilər. O da mənə bildirdi ki, artıq gecdi...”

***

Nəvə Müseyib İlyasovun baba Müseyib İlyasov haqqında yazdığı (yeri gəlmişkən, hər iki Müseyibin adı-soyadı, məsləki kimi atalarının, analarının adı da eynidir) kitabın missiyası görkəmli maarifçi Müseyib İlyasovun taleyinə, eləcə də ölkəmizin maarifçilik tarixinə işıq salmaqla məhdudlaşmır. Başqa məziyyətləriylə yanaşı, bu kitab mənim də mənsub olduğum nəslin yaddaş kitabı, İlyas uşağının ensiklopediyası, qırx il, qırx beş il qabaq yazmağı arzuladığım, ancaq yaza bilmədiyim nəsil epopeyasının həm qısa xülasəsi, həm də yol xəritəsidir. Bəlkə də İlyas oğullarından kimsə nə vaxtsa irəli çıxıb, o dastanı, bədii salnaməni yazmaq üçün qol çırmayacaq. Onda bu şəcərə kitabı, bu ömür xəritəsi həmin o cəsarətli oğulun köməyinə çatacaq...



***F.Uğurlu***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# ŞƏNBƏ ÜÇÜN NƏZM









*Cəvahir Tanrıverdi*

## GÖY QURŞAĞI

Yağış dayanan kimi,
Günəş varsa səmada,
Yeddi rəngə bürünər,
Çox sevinər səma da.

Bənövşəyi, mavi, göy,
Yaşıl, sarı, narıncı,
Lap üstündə qırmızı -
Hər rəng, sanki, bir inci.

Bu yeddi rəng birlikdə
Göy qurşağı adlanır.
Onu göydə görüncə
Yerdəkilər şadlanır.

## KÜLƏKLƏ SÖHBƏT

Külək, əsən yellərinlə
Çırpma qəmini üzümə.
Yağış deyib göz yaşını
Çiləmə, gəl, üz-gözümə.

Qəmin qəmimə çatarmı?
Səndən də çiskinliyəm mən.
Əsirəmmi?
Coşurammı?
Bilsən, nə kədərliyəm mən...

Önümdə nə dağ, nə dəniz -
Bir coşsam, dayana bilməz.
Sən qopardığın tufanlar
Yanımdan yel olub ötməz.

Mənim bu sükutum hara?
Bəs sənin coşmağın hara?
Kədərimdə boğulsam da,
Səs salmıram bu dünyaya.

Hansımız daha güclüyük?
Sən əsirsən, bitir qəmin.
Gülüşümün arxasında
Kədər lal kimi gizlənir.

## XOŞBƏXTLİYİM - DÖRD OKEAN

Xoşbəxt olmaq istəyirəm
damla-damla...

Damlalar bir çaya dönsün,
Çaylar dənizə axsın,
Dənizlər də okeanla birləşsin.

Xoşbəxtliyim - dörd okean.

Yer üzündə
su qurudan
nə qədər çoxdursa,
xoşbəxtliyim kədərimdən
bir o qədər çox olsun.

Çaylar daşır, quru torpaq yox olur -
Qoy mənim də qəm-kədərim yox olsun,
Xoşbəxtliyim çox olsun.

## TANRIM, QORU

Tanrım, bizi dili xəncər dostdan qoru -
Ürəkləri yaralayar.

Qoru bizi şirin dilli düşmənlərdən -
Bəxtimizə tələ qurar.

Min yeyib bir deyənlərdən,
Üzə gülən ilanlardan qoru bizi.

Tanrım, bizi çoxdan qoru,
azdan qoru,
Ürəyi xəbisdən qoru!

Tanrım, bizi keşməkeşli yollarında
Dara itənlərdən qoru.

Gen günündə həmdəm olub
Darda itənlərdən qoru.

Yalanlardan, riyalardan,
Pulla doyanlardan qoru.

Dostluğu kül tək havaya
Sovuranlardan qoru.

Sonu bilinməz yollardan,
Yaxşı donlu yamanlardan,
Ürəyi nəfslərinə
Ah... qul olanlardan qoru.

Yaxşılıqlar üfüq olsun Yer üzünə,
Yaxşılıqlar şəfəq saçsın.

Alov kimi kəlmələrdən
Nə qəlb yansın,
Nə qəlb yansın!

## BU TORPAQ SƏNİNDİR

Bu torpaq sənindir - burda babanın
Zəhmətlə tökdüyü alın təri var.
Burda şir ürəkli nər oğulların
Şanlı döyüşlərdə axan qanı var.

Bu torpaq sənindir - burda ananın
Laylasından doğan həyat ritmi var.
Süfrəyə qoyduğu naz-neməti,
İsti çörəyinin sevgi ətri var.

Bu torpaq sənindir - burda övladın
Daşı daş üstünə qoymağı gərək.
Babalarımızdan qalan mirası
Göz bəbəyi kimi qorumaq gərək.

Torpaq qürurundur,
torpaq mənliyin,
Namusun, qeyrətin, heysiyyətindir.
Başını dik saxla, fəxrlə söylə:
"Bu torpaq mənimdir,
bu el mənimdir!"

## QƏZƏL

(Xurşidbanu Natəvanın "Qərənfil"
qəzəlinə nəzirə)

Güllər içrə könlü yara - qərənfil,
Üsyan eylə sitəmkara, qərənfil.

Toy gülüydün, bəzədin baş daşını,
Gəlməsin ömrünə qara, qərənfil.

Gül üzünü məzara söykəməkdən
Gəlmədinmi, söylə, zara, qərənfil?

Pöhrələn sən o sevda bağçasında,
Eşqdən müjdə ver yara, qərənfil.

Ağlama, gəl, sitəm etmə könlümə,
Könlüm onsuz para-para, qərənfil.

Əl götürmə həyatın xoş günündən,
Çevir ömrünü gülzara, qərənfil.

Xan qızının səninlə qaldı ruhu,
Salma onu intizara, qərənfil...

## ŞAİR ÖMRÜ

Necə mənalıdır, necə də həzin -
Oxunan layladır bir şair ömrü.
Sinəsi tufanla coşan bir dəniz,
Yüksələn dalğadır bir şair ömrü.

Vərəqin köksünə sıxıb qələmi,
Yazır sətir-sətir bütün aləmi.
Yığıb sinəsinə dərdi, ələmi,
Çağlayan ümmandır bir şair ömrü.

Sözü dənizlərdir, sözü dağlardır,
Sıldırım qayalar, qarlı yollardır.
Nisgilli illərdir, coşğun aylardır -
Tufandır, borandır bir şair ömrü.

Düşünən beyindir, yanan ürəkdir,
Dərdli könüllərə duzdur, çörəkdir.
Sevgidir, vüsaldır, arzu-diləkdir -
Dərdinə yanandır bir şair ömrü.

Həsrətə düşərsə qələmin izi,
Alışar kəlməsi, alışar sözü.
Əyilsə qaməti, titrəsə dizi -
Şeirə qurbandır bir şair ömrü.

# "Litagent" kimdir?

***Kim olacaq, əsl Ədəbiyyat bilicisi, söz, fikir xiridarı, zərgər . "Litagent" heç bir halda dönüb nəşriyyat meneceri ola bilməz. Amma olur...***



Müasir kitab sənayesi identik ədəbiyyatın, müəllifin, mətnin qarşısında ciddi tələblər qoyur. Hətta müəllifi, mətni öz "inkubasiya"sında yetişdirməyə çalışır. Və təbii olaraq onu öz vitrininə tabe etdirir. Bir tərəfdən də "qlobal, uydurma mətn" yaratmaq potensialı formalaşır. Ardınca "qlobal, uydurma müəllif" də gələcək... Bax, İkinci Dünya müharibəsindən sonra qoca Avropada formalaşan "litagent"lər, əsasən, bu işlə məşğul olur - müəllif tapmaq, kəşf etmək, yoxdursa da, onu uydurmaq. Fəqət, öyrəşdiyimiz sivilizasiya iflasa uğrayır, mədəniyyət aşılanır, müəllif "yoxa çıxır", uydurmağa kimsə yox.

Bəs "litagent" bütün parametrlərə cavab verən mətni haradan tapacaq? O isə həm nəşriyyatlar, həm də müəlliflər - bütövlükdə kitab sənayesi, yeni çağırışlar və cığırlar qarşısındadır...

Dünyada get-gedə elektron kitab bazarı print kitabı üstələyir: daha cəlbedici, ucuz, əlçatan, hətta əyləncəli platformalar təklif edilir. Tutaq ki, səsli kitabın, musiqinin, kinonun birlikdə - paket şəklində təklif olunduğu platformalar, mobil tətbiqlər dirçəlir.

Uzun müddətdir ki, bu platformaların inkişaf meyillərini izləməyə çalışıram. Onlar kağız kitabı əvəzləmək üçün dəridən-qabıqdan çıxır, min cür üsullarla daha cəlbedici üstünlüklər təklif edirlər. Məsələn, səhifələrdə gözü yormayan rəng, işıq və şrift seçimləri, səhifələri çevirərkən kağız xışıltısı, rəy bildirmək imkanı, klassikadan tutmuş postmodernizmədək xeyli sayda kitabın ucuz qiymətə əldə edilməsi, bir neçə kitabın paralel oxuna bilməsi və sair...

Məncə, onlar istədiklərinə də nail olurlar. Həm oxucu ucuz kitab əldə edir, həm müəllifin imzası kütləviləşə bilir, interaktivlik yaranır, həm də nəşriyyat qazanır. Bir sözlə, kitabsevərin o möhtəşəm kağız qoxusundan başqa hər şey var... Kim bilir, bəlkə, nə vaxtsa, bu funksiya da smart qurğuların beyninə yerləşdiriləcək: smartfonda kitab mütaliə edirsən və oradan ənənəvi kağız qoxusu gəlir...

Hal-hazırda yuxarıda göstərilən üstünlüklər elektron kitab sənayesi tərəfindən ciddi təşviq edilir, smart mütaliəçilərin sürətlə artdığına dair müxtəlif statistikalar verilir. Bu məsələlərdə investorların reklam şişirtmələri də istisna edilməməlidir. Lakin, istiqamət dəyişmir. Kitab elektronlaşır... smartlaşır...

Azərbaycanda da belə platformalar yaratmaq cəhdləri uğursuz oldu. Hətta bir müddət tam durğunluq yarandı. İndi isə bir neçə nəşriyyat başa düşüb ki, əziyyət çəkib yerli platformalar yaratmağa cəhd etməkdənsə, öz kitablarını (o cümlədən müəllifləri) daha qlobal platformalarda təqdim edə bilərlər. Həm də öz ana dillərində, öz tərtibatları, müəllif hüquqları ilə birlikdə.

Lakin bu işlər o qədər ətalətli şəkildə aparılır ki, hətta "smartfomanlar" da ona çəpəki baxırlar... Bəlkə, kitabın, müəllifin, hətta yüksək qonorarın gələcəyi buradadır? Görəsən, bu sualı nəşriyyat menecerinə çevrilmiş "litagent"lərə versək, nə deyərlər?

İndi Avropadakı "litagent"ləri daha çox bu mövzular maraqlandırarkən, az kitab oxuyan cəmiyyətlər hələ də kitabın sənaye, biznes deyil, maarifçi ruh olduğunu israr edir. Elə isə ortaya seçim dövrü çıxır. "Litagent"lərin təkcə tendensiyaları, müəllifi, identik mətni, fərqliliyi seçməsi deyil, həm də texnologiyanı, smart oxucunu nəzərə alması zəruriləşir. Qlobal çağırışlar nəşriyyatları da yeni alətlər tapmağa sövq edir. Oxucu çoxfunksiyalı kitab platformalarında gəzişmək, daha ucuz, əlçatan kitab əldə etmək istəyəcək. Beləcə, o, həm maariflənmək, həm öyrənmək, həm də əylənmək fikrindədir...

"Azərbaycan Mədəniyyəti - 2040" Konsepsiyasında xüsusi yer alan rəqəmsallaşma təklifləri də bütün bu suallara cavab tapmaq üçündür.

Bəlkə təkcə milli kitab sənayesini inkişaf etdirmək deyil, həm də müəllifləri zərgər dəqiqliyi ilə seçib nəşriyyatlara təqdim edə bilən əsl ədəbiyyat adamları - "litagentlər" hazırlamalıyıq? Milli Ədəbiyyat Agentliklərinin yaradılmasına diqqət yetirməli, onların müəllif, tərcüməçi və redaktorlarla səmərəli işləməsini təmin etməliyik? Axı müəllif maşın deyil, heç vaxt da olmayacaq. O, Biləcəridən o yana can atmamalıdır. Bunu milli "litagentlər"imiz, əsl ədəbiyyat bilicilərimiz etsə, daha yaxşı olmazmı?

***Məqsəd Nur***

# Düşünən beynin qidası...

## Kitab paylaşdıqca fayda verir...

***Yeganə BAYRAMOVA***

İnsan həyatında elə dəyərlər var ki, zaman keçdikcə onların əhəmiyyəti daha da artır. Kitab da məhz həmin dəyərlərdən biridir. Texnologiyanın sürətlə inkişaf etdiyi, informasiyanın saniyələr içində yayıldığı bir dövrdə kitab bəzən kölgədə qalsa da, onun insan düşüncəsinə, mənəviyyatına və dünyagörüşünə təsiri dəyişməz olaraq qalır.

Kitablar bəzən hisslərimizi ifadə etmək üçün mühüm vasitə rolunu oynayır. Kitab oxumaq qətiyyət, səbr və öyrənmək istəyinin əlamətidir. Kitab oxumaq həm bir şəxs, həm də bir millət üçün nicat əlamətidir. Kitab insanlara danışmağı, yazmağı, həyatı, insanlığı öyrədir.

Kitab üçün buna bənzəyən çoxsaylı ifadələr işlədə bilərik. Çünki kitab həyatımızda xüsusi yeri olan və bizə nə isə izah etməyə həsr olunmuş bir nemətdir. Bəzi insanlar bundan sui-istifadə edirlər. Məsələn, bəzi hallarda hansısa dini və inancları ləkələmək üçün kitabdan istifadə olunur. Maraqlısı odur ki, həmin insanları da kitablar vasitəsilə doğru yola çəkmək mümkündür.

**Kitab ianələri...**

Belə bir ifadə var ki, hər insan kitab yaza bilməz, amma hər kəs kitab oxuya bilər. Bu mənada kitablar hər kəsin düşüncəsinə, zövqünə xitab edir. Kitab elə bir məfhumdur ki, paylaşdıqca insanlara daha çox fayda verir. Buna görə də, kitab ianələri çox vacibdir. Çünki hər kəsin kitab almağa büdcəsi olmaya bilər. Ona görə də oxuduğunuz kitabları çox insan oxusun deyə paylaşın...

Yeri gəlmişkən, 14 fevral Beynəlxalq Kitab Bağışlama Günüdür. Bu gün hər kəs




oxumaqdan zövq aldığı kitabları bağışlamaqla başqalarının faydalanmasına kömək edə bilər. Bəzi yeni və ya səliqəli istifadə olunmuş kitablar yerli kitabxanalara, yerli məktəbə, vətəndaş cəmiyyətlərinə və ya yerli quruma bağışlana bilər.

Bu gün həm də oxumaq sevgisini yaymaq üçün bir fürsətdir. Bütün dünyada kitabların bağışlanması savadlılığı dəstəkləyə və oxumağa təşviq edə bilər.

**Kitab oxumağın faydaları**

Kitab oxumaq diqqəti və konsentrasiyanı yaxşılaşdırmağa kömək edir, təxəyyülü artırır, stresi azaldır, yaddaş gücünü yaxşılaşdırır. Kitab həm də oxumağa həvəsi olan insanlar üçün ən yaxşı hədiyyədir. Kitabların qiyməti də sərfəlidir və diqqətinizi problemlərdən yayındırır, bəzən sizi həyəcanlandırır, dünya haqqında öyrədir və geniş baxış bucağına sahib olmağa kömək edir.

Beynəlxalq Kitab Bağışlama Gününün mənşəyi haqqında dəqiq məlumat yoxdur. Ancaq ehtiyacı olan uşaqlar üçün kitab və ya pul bağışlamağın vacibliyinə görə bu günü qeyd etmək vacibdir. Bu günün yaradılmasında əsas məqsəd uşaqları kitab oxumaq vərdişinə yiyələndirməkdir. Bu mənada Kitab Bağışlama Günü bir çox uşaq üçün bu vərdişi əldə etmək şansı verə bilər. Beynəlxalq Kitab Bağışlama Gününün əhatə dairəsi genişlənməkdə davam edir. Artıq bu gün Avstraliya, Kanada, Cənubi Afrika və bir çox ölkələrdə qeyd olunur.

**Necə qeyd etmək lazımdır?**

Ancaq çox təəssüf ki, bir çox ölkələrdə, hətta nə qədər təəccüblü olsa da, inkişaf etmiş ölkələrdə də kitab çatışmazlığı problem olaraq qalır. Məsələn, İngiltərədə uşaqların üçdə birində kitab yoxdur. ABŞ-da yoxsulluq içində yaşayan uşaqların üçdə ikisinin kitabı yoxdur. Bu mənada, Beynəlxalq Kitab Bağışlama Günü uşaqların kitablara əlçatanlığını və həvəsini artırmaq məqsədi daşıyan könüllü təşəbbüsdür.

Bu baxımdan bütün dünyada insanlar öz icmalarında ehtiyacı olan uşaqlara kömək etməyin ən yaxşı yollarını nəzərdən keçirir - kitablarin bağışlanmasının vacibliyi haqqında maarifləndirmək üçün sosial şəbəkələrdə fotoşəkillər və fikirlər paylaşılır.

Qeyd edək ki, bayram əsasən İngiltərədə qeyd olunsa da, dünyanın hər yerindən kitabsevərlər hər il bu bayramlara qatılırlar və bir-birlərinə, qurumlara kitab bağışlayaraq bu günü xoş ovqatla keçirirlər.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4768**
**Sifariş: 218**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova